# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

30 dekabr 2024-cü il, bazar ertəsi
№ 243 (6829)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Biz tam qətiyyətlə öz fikrimizi deyirik və deyəcəyik

## Şərtlərimizdən birincisi artıq təmin edildi. Mən ümid edirəm ki, digər şərtlərimiz də qəbul ediləcək. Bütün bu şərtlər ədalətlidir



Bax səh. 2

# Prezident vida mərasimində iştirak edib

Bax səh. 2

## 2024-cü ilin mühüm siyasi hadisələri...

2024-cü il ölkəmiz üçün böyük uğurlarla yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyevin xalqımız qarşısındakı xidmətləri, qlobal səyləri, qətiyyəti və digər yüksək şəxsi keyfiyyətləri ölkəmizin əldə olunan nailiyyətlərini təmin edən mühüm amillərdir. Bu il, həm də bir sıra önəmli siyasi hadisələrlə əlamətdardır. Şübhəsiz ki, ilin ən mühüm siyasi hadisəsi fevralın 7-də keçirilmiş prezident seçkiləridir.

**7 fevral: Azad və ədalətli prezident seçkiləri**

Həmin seçkilər cəmiyyətimiz tərəfindən haqlı olaraq Zəfər seçkisi kimi qəbul edilir. Çünki fevralın 7-də müstəqil Azərbaycanın tarixində ilk dəfə respublikamızın suverenliyi və ərazi bütövlüyü tam bərpa olunmuş bir şəraitdə, işğaldan azad edilmiş regionlarımız da daxil olmaqla ölkənin hər bir bölgəsində prezident seçkiləri keçirildi. Azad, ədalətli və şəffaf şəraitdə keçirilən seçkilər ölkəmizin ictimai-siyasi həyatında müstəsna əhəmiyyətli hadisəyə çevrilib. Bu seçkilər respublikamızda Prezident İlham Əliyevin rəhbərliyi ilə əsas ümummilli ideyamızın həyata keçirildiyi bütöv bir mərhələnin yekunu və qarşıda yeni mühüm çağırışların dayandığı növbəti mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Prezident İlham Əliyev ailəsi ilə birlikdə Xankəndi şəhərində yaradılmış seçki məntəqəsində səs verdi.

Qeyd edək ki, prezident seçkilərində 7 namizəd mübarizə aparıb. Namizədlər üçün seçki kampaniyasında bərabər şərait yaradılıb. Prezident seçkilərində şəffaflığın yüksək səviyyədə təmin olunması üçün digər vasitələrlə yanaşı, bütün respublika coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində internet vasitəsilə səsvermə prosesini əvvəldən-axıradək, fasiləsiz və birbaşa izləmək imkanı verən veb-kameralar quraşdırılıb. Prezident seçkilərinin müşahidəsinə 72 nüfuzlu beynəlxalq qurum və 89 ölkəni təmsil edən 790 beynəlxalq müşahidəçi qatılıb. Eyni zamanda, dünyanın 110 aparıcı xarici media subyektindən 217 təmsilçi MSK tərəfindən müvafiq lövhəciklə təmin edilərək seçkiləri izləyib.

**Erməni separatçılarının tabutuna vurulan son mismar!**

Seçkilərin müşahidəsinə, həmçinin çoxsaylı siyasi partiyaları, qeydə alınmış namizədləri, qeyri-hökumət təşkilatlarını, vətəndaş cəmiyyəti institutlarını və ictimai birlikləri təmsil edən, eyni zamanda, öz təşəbbüsləri ilə seçkilərə qatılmış 90 mindən artıq yerli müşahidəçi qatılıb. Seçkilərin müşahidəsində qeyri-hökumət təşkilatlarının yüksək fəallığı xüsusi diqqət çəkib.

Zəfər seçkisi 125 seçki dairəsi üzrə 6319-u daimi, 218-i müvəqqəti olmaqla, ümumilikdə...

Bax səh. 3




Bax səh. 5

## Beş milli prioritetdən biri - Böyük Qayıdış

Bax səh. 5

## Sülh üçün təməl...

Bax səh. 5

## Dayanıqlı iqtisadiyyat, sabit məzənnə, birrəqəmli inflyasiya...

Bax səh. 6

## 2024-cü il... Azərbaycan mədəniyyəti nə ilə yadda qaldı?

Bax səh. 8

## İnkişaf salnaməsinin parlaq səhifəsi

Yola salacağımız il bir sıra sosial-iqtisadi yeniliklərlə zəngin oldu. Yanvar-noyabr aylarında əsas makroiqtisadi göstərici olan ümumi daxili məhsul (ÜDM) 4,1 faiz böyüyərək nominal həcm baxımından 113,2 milyard manatı ötüb. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,4 faiz, qeyri neft-qaz sektorunda isə 6,4 faiz artıb. Eləcə də sənayedə, xüsusən də qeyri-neft sənayesində artım meyilləri yüksəlib. Ötən 11 ay ərzində 60 milyard manata yaxın sənaye məhsulu istehsal edilib ki, istehsalın əsas mənbəyini 8,8 faiz artımla qeyri neft-qaz sektoru təşkil edir.

İqtisadiyyatın şaxələndirilməsi ilə bağlı yürüdülən siyasət öz müsbət təsirlərini göstərməkdədir və artıq ölkənin inkişafında ağırlıq mərkəzi tamamilə qeyri-neft sektorunun üzərinə transformasiya olunmaqdadır. Yaxınmüddətli iqtisadi inkişaf ssenarilərinə əsasən, neft-qaz sektorunun tədricən daralacağı şəraitində iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft gəlirləri olacaq və 2024-cü ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payının 72 faizə çatacağı proqnozlaşdırılır. Eyni zamanda, qeyri-neft resurslarının yüksək artımları müqabilində ilin sonunda ümumi daxili məhsulun 5-6 faiz təşkil edəcəyi fərz olunur.

2024-cü ilin 11 ayı ərzində biznesin aktivliyinin yüksəlməsi fiskal yığımların həcmini də artırıb, vergi orqanlarının xəttilə dövlət büdcəsinə 14 milyard 993 milyon manata yaxın vergi daxil olub. Büdcənin yığım mənbələri genişlənib. Eləcə də Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun yığımlarında əhəmiyyətli artımlar qeydə alınıb.

2024-cü ilin yanvar-noyabr aylarında əsas kapitala 15,9 milyard manat məbləğində investisiya yönəldilib. Bu dövrdə 4 milyard dollara yaxın xarici kapital cəlb edilib.

Xarici sərmayələrin xüsusilə qeyri-neft sektoruna yatırılması intensivləşib. Eləcə də sərmayələr daha çox yeni sənaye mərkəzlərinə, sənaye parklarına, o cümlədən azad edilmiş ərazilərdə fəaliyyət göstərən Ağdam Sənaye Parkına və Cəbrayıldakı "Araz Vadisi İqtisadi Zonası"na yönəldilir.

Cari ildə Türkiyənin "Gen İlaç ve Sağlık Urünleri Sanayi ve Ticaret A.Ş." şirkətinin iştirakı ilə Pirallahı Sənaye Parkında investisiya dəyəri 35 milyon ABŞ dolları olan layihənin, İsrailin "BioPharmax" şirkəti ilə əməkdaşlıq çərçivəsində Ələt Azad İqtisadi Zonasında dəyəri 45 milyon avro olan əczaçılıq zavodunun tikintisi layihəsinin icrasına başlanıb. Türkiyənin "Demirören" şirkəti ilə Laçında kiçik su elektrik stansiyalarının tikintisi layihəsi üzrə 15 milyon dollar dəyərində, İsrail şirkəti ilə aqrar layihəsi üzrə...

Bax səh. 4

## Yeni ilə hazırlıq...



Bax səh. 7

## Vardanyan məhkəmə qarşısında...



Bax səh. 7

# Biz tam qətiyyətlə öz fikrimizi deyirik və deyəcəyik

## Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Televiziyasına müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

**Jurnalist: Salam cənab Prezident.**

**Prezident İlham Əliyev: Salam.**

**Jurnalist: Təəssüf ki, ötən günlərdə bizi dərindən sarsıdan hadisə baş verdi. Dekabrın 25-də Bakı-Qroznı istiqaməti üzrə marşrutu yerinə yetirən AZAL-a məxsus təyyarənin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması və bundan sonra hadisələrin inkişafı ilə bağlı fikirlərinizi bilmək istərdik.**

**Prezident İlham Əliyev:** Mən bu barədə Sankt-Peterburqa MDB Zirvə görüşünə uçarkən məlumat aldım, məlumatlandırıldım, dərhal göstəriş verdim və təyyarə geri - Bakıya döndü. Bakıya gələn kimi burada hava limanında operativ müşavirə keçirdim. Hələ Bakıya qayıdarkən mənim göstərişimlə Dövlət Komissiyası yaradılmışdır və müvafiq qurumların nümayəndələrindən ibarət heyət Aktau şəhərinə dərhal ezam edilmişdir. Çünki onlar dərhal işə başlamalı idilər. İlk növbədə, təyyarənin qalıqlarının vəziyyəti ilə tanış olmalı idilər, yerində müşahidə aparmalı idilər, video və fotomateriallar əldə etməli və onları ictimaiyyətə təqdim etməli idilər.

Eyni zamanda, Azərbaycan həkimlərindən ibarət qrup ezam edilmişdi. Baxmayaraq ki, Qazaxıstan tərəfi yaralıları sağaltmaq və onlara tibbi xidmət göstərmək üçün əlindən gələni əsirgəmirdi. Eyni zamanda, mənim göstərişimlə Azərbaycan Baş Prokurorluğu cinayət işi açmışdır və bilirəm ki, həm Qazaxıstanda, həm Rusiyada oxşar addımlar atılmışdır.

Təbii olaraq ilkin versiyalar üzərində iş başladı. Əlbəttə, son versiya “qara qutu”lar açılandan sonra bəlli olacaq. Ancaq ilkin versiyalar da kifayət qədər əsaslıdır və faktlara söykənir. Faktlar isə ondan ibarətdir ki, Azərbaycanın mülki təyyarəsi Rusiya ərazisində, Qroznı şəhərinin yaxınlığında xaricdən zədə almış və idarəetməni demək olar ki, itirmişdir. Onu da bilirik ki, təyyarəmiz radioelektron mübarizə vasitələri tərəfindən idarəolunmaz vəziyyətə salınmışdır. Bu, təyyarəyə yetirilən birinci xətərdir. Eyni zamanda, yerdən açılan atəş nəticəsində təyyarənin quyruq hissəsi də böyük dərəcədə zədələnmişdir və dərhal, elə həmin gün bizim heyətimiz Aktau şəhərində artıq o videomaterialları təşkil edəndə ictimaiyyət də bu məsələ ilə məlumatlandırıldı. Füzelyajın dəlik-deşik olması, əlbəttə, göstərir ki, bilmirəm, ilkin olaraq kimin tərəfindən atılmış quş versiyası tamamilə gündəlikdən çıxarıldı. Ola bilər ki, təyyarə zədə alanda, zərbə alanda pilot bunu quşların təyyarə ilə toqquşması kimi qəbul edə bilərdi. Çünki yəqin ki, heç kimin ağlına gələ bilməzdi ki, bizim üçün dost olan ölkədə bizim təyyarəyə yerdən atəş açılsın. Ancaq təəssüflər olsun ki, Rusiyanın bəzi dairələri bu versiya üzərində dayanmağa üstünlük vermişdilər. Bizi təəssüfləndirən və təəccübləndirən məqamlardan biri də o idi ki, Rusiyanın rəsmi qurumları hansısa qaz balonunun partlaması ilə bağlı versiyalar irəli sürmüşdü. Yəni, bu, açıq-aydın göstərirdi ki, Rusiya tərəfi məsələni ört-basdır etmək istəyir və əlbəttə, bu, heç kimə başucalığı gətirmir. Təbiidir ki, təyyarəmiz təsadüfən vuruldu. Təbiidir ki, burada hər hansı bir qəsdən terror aktı törətmək məsələsindən söhbət gedə bilməz. Ona görə öz günahını etiraf etmək, dost ölkə sayılan Azərbaycandan vaxtında üzr istəmək və bunu ictimaiyyətə bildirmək - bütün bunlar görüləsi tədbirlər idi və addımlar idi. Əfsuslar olsun ki, birinci üç gün ərzində biz Rusiyadan cəfəng versiyalardan başqa heç nə eşitməmişik.

Təbii ki, qəzanın təfərrüatları tam araşdırılacaq. Bundan mənim şübhəm yoxdur. Onu da bildirməliyəm ki, Azərbaycan ilk gündən beynəlxalq ekspertlərdən ibarət qrupun bu işlə məşğul olmasının tərəfdarı idi. Rusiya tərəfi rəsmi qaydada bizə təklif etmişdi ki, Dövlətlərarası Aviasiya Komitəsi bu işi araşdırsın. Biz isə qəti şəkildə bundan imtina etdik. Səbəb də aydındır. Çünki sirr deyil ki, bu qurum daha çox Rusiya məmurlarından ibarətdir və qurumun başında Rusiya vətəndaşları dayanır. Burada obyektivlik amilləri tam təmin edilməyə bilərdi. Əgər qəza baş verəndən dərhal sonra biz Rusiya tərəfindən ədalətli və adekvat addımlar görsəydik, bəlkə də buna etiraz etməzdik. Amma biz gördük ki, burada məsələni ört-basdır etmək cəhdləri göz qabağındadır.



Ona görə biz həm Qazaxıstan tərəfi ilə sıx təmasda olarkən bu mövqeyimizi bildirdik, həm də Rusiya tərəfinə mövqeyimizi bildirdik ki, ancaq beynəlxalq ekspertlərdən ibarət işçi qrup yaradılmalıdır və yaradılmışdır. Orada təyyarənin istehsalçı şirkəti - “Embraer”in nümayəndələri, Braziliyanın müvafiq qurumlarının nümayəndələri, Azərbaycan, Qazaxıstan və Rusiyanın, o cümlədən Dövlətlərarası Aviasiya Komitəsinin nümayəndələri də var. Ancaq aparıcı rollarda yox, sadəcə olaraq, işçi qrupun tərkibində olan üzvlər kimi. Yenə də deyirəm, “qara qutu”lar açılandan sonra və daha detallı məlumat əldə etdiyimiz halda məsələnin tam təfərrüatları üzə çıxacaq və bu gün hələ ki, sual kimi qalan bir çox məsələlərə aydınlıq gətiriləcək. Məsələn, təyyarə nə üçün Qroznı şəhərinə enə bilmədi? Radioelektron mübarizənin təsiri nə dərəcədə təyyarənin idarə olunmasına təsir göstərmişdir? Havada endirilən zərbə və təyyarənin yanında olan partlayışın nəticələri nə dərəcədə təsirli oldu? Çünki onu da bildirməliyəm ki, bu, açıq-aydın faktı inkar etmək və burada gözdən pərdə asmaq cəhdləri həm cəfəngiyyatdır, həm də ağılsızlıqdır. Çünki xoşbəxtlikdən ekipajın qəhrəmanlığı sayəsində elə hadisə baş verdi ki, təyyarə enə bildi, qəza enişi olsa da, təyyarə enə bildi. Sərnişinlərin bir çoxu xilas edildi, onların ifadələri var. Təyyarəni deşən qəlpələrin sərnişinlərə və ekipaj üzvlərinə yetirdiyi xəsarət göz qabağındadır. Bunu hansısa quşlarla bağlamaq, yaxud da ki, qaz balonunun partlaması kimi qələmə vermək həm ağılsızlıqdır, həm də vicdansızlıqdır.

Ona görə də “qara qutu”lar açılandan sonra bilinəcək ki, nə üçün təyyarə enə bilməyib? Dəqiq nə vaxt təyyarəyə yerdən atəş açılıb? Nə üçün yaxında olan hava limanlarına təyyarə eniş cəhdi etməyib, daha yaxın Minvod və Mahaçqala hava limanları idi. Təyyarə Aktauya göndərildimi, yoxsa bu, obyektiv seçim idi? Müxtəlif fərziyyələr var. Bəziləri hesab edir ki, təyyarə bilərəkdən yerdəki xidmət tərəfindən, Qroznı tərəfindən göndərildi ki, çünki təyyarə artıq idarəolunmaz vəziyyətdə idi və ehtimal böyük idi ki, təyyarə dənizə düşəcək. Belə olan halda, ört-basdır cəhdləri uğurla nəticələnəcək və dırnaqarası quş versiyası əsas versiya kimi təqdim ediləcək. Bəzi mütəxəssislərin fikirlərinə görə, Aktau ona görə seçilmişdir ki, orada açıq məkandır və yaşayış yerləri hava limanından uzaqdır və təyyarə ekipajı fərz edə bilərdi ki, bu, qəza enişi olacaq və bunun üçün daha uyğun yer seçmişdi. Ancaq digər tərəfdən, yaxın hava limanları olan halda, təyyarə idarə olunmaz vəziyyətdə olan halda daha uzaq məsafəyə, özü də dənizin üzərindən uçmaq daha riskli idi. Yəni, bütün bu suallara hələ ki, cavab yoxdur. Biz Azərbaycan tərəfi və şəxsən mən maksimum ədalətli olmağa çalışırıq. Biz hansısa tam aydın olmayan məsələləri, bu məsələlər aydınlaşmadan bu barədə fikir söyləmək istəmirik. Ancaq açıq-aydın olan məsələlərdə biz tam qətiyyətlə öz fikrimizi deməliyik, deyirik və deyəcəyik. Mən qəza baş verən gün burada - hava limanında öz çıxışımda söylədim ki, Azərbaycan ictimaiyyəti müntəzəm olaraq bu məsələ ilə, bu istintaqın gedişatı ilə bağlı məlumatlandırılacaq və məlumatlandırılır.

**-Cənab Prezident, bəs təyyarə ekipajının fəaliyyətini necə qiymətləndirirsiniz?**

-Çox yüksək. Bu gün mən vida mərasimində iştirak etdim, həlak olan ekipaj üzvlərinin yaxınlarına başsağlığı verdim. Bu gün ekipaj üzvlərinin təltifi ilə bağlı mənim Sərəncamım olacaq. Mən onların fəaliyyətini, peşəkarlığını, fədakarlığını çox yüksək qiymətləndirirəm. Pilotlar və bütün ekipaj böyük qəhrəmanlıq göstərdilər. Pilotlar həm peşəkarlıq, həm qəhrəmanlıq göstərmişlər ki, idarəedilməz vəziyyətdə olan təyyarəni müxtəlif üsullarla idarə edirdilər. Baxmayaraq, təbii ki, pilotlar təcrübəli pilotlar idi və bilirdilər ki, onlar bu qəza enişindən sağ çıxa bilməyəcəklər. Ancaq sərnişinləri xilas etmək üçün onlar maksimum böyük qəhrəmanlıq göstərmişlər və məhz bunun nəticəsində təyyarə qəzasında sağ qalanlar var. Məhz bunun nəticəsində füzelyajın bir hissəsi yanmayıb və məhz bunun nəticəsində bu gün biz tam açıq-aydın deyə bilərik ki, təyyarə Rusiya tərəfindən vuruldu. Bax bu faktdır və bu faktı heç kim dana bilməz. Yenə də biz demirik ki, bu, qəsdən edildi, amma bu, edildi.

Pilotlar və ekipaj üzvləri - onlar həm peşəkarlıq, həm soyuqqanlılıq göstərmişlər. Xüsusilə mən qadın ekipaj üzvlərini qiymətləndirməliyəm. Onlar özləri stres vəziyyətində idi. Ancaq sərnişinləri sakitləşdirmək, təyyarənin içində xaos vəziyyəti yaratmamaq üçün görün, onlar nə qədər böyük insani davranış göstərmişlər. Onların fəaliyyəti, yenə də deyirəm, Azərbaycan dövləti tərəfindən layiqincə qiymətləndiriləcək. Allah ölən ekipaj üzvlərinə və bütün həlak olanlara rəhmət eləsin və biz sağ qalanlara Allahdan şəfa diləyirik. Sağ qalanların böyük hissəsi artıq Bakıdadır. Onlar Qazaxıstanda dərhal müalicə almışlar. Bəziləri hələ ki, müalicə alır və imkan olan kimi onlar da Azərbaycana təxliyə ediləcəklər.

**-Cənab Prezident, Siz Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə zəng etdiniz. Müzakirə olunan məsələlər barədə fikrinizi bilmək istərdik. Ümumiyyətlə, məsələ ilə bağlı birgə fəaliyyət aparan Azərbaycan və Qazaxıstan hökumətləri rəsmilərinin bu birgə fəaliyyətini necə qiymətləndirirsiniz?**

-Bəli, mən, ilk növbədə, Prezident Tokayevə minnətdarlığımı ifadə etmək üçün zəng etdim. Çünki biz bilirdik və məlumat əldə etmişdik ki, qəza baş verən kimi Qazaxıstan xilasediciləri dərhal hadisə yerinə yetişdilər və insanları o dağılmış füzelyajdan çıxartmağa başlamışdılar. Öz həyatlarını risk altına atmışdılar. Çünki onlar bilmirdilər ki, növbəti partlayış olacaq, yoxsa yox. Çünki təyyarənin bir hissəsi yanmışdı və bu hissə də yana bilərdi. Amma buna baxmayaraq, onlar da əsl qəhrəmanlıq göstərmişdilər. Eyni zamanda, həkim personalının fəaliyyəti də çox qiymətli idi. Çünki yaralı sərnişinlər dərhal tibb məntəqələrinə aparıldılar və buna görə də Prezident Tokayevə mən təşəkkürümü bildirdim. Qazaxıstanlı qardaşlarımızın, bacılarımızın həmrəylik nümayişi də mən bilirəm ki, Azərbaycan xalqının qəlbində çox böyük iz buraxmışdır. Adi vətəndaşlar bizim Aktaudakı konsulluğa gələrək gül qoydular, öz münasibətlərini bildirdilər, bizimlə həmrəy olduqlarını bildirdilər. Əsl dostluq, qardaşlıq belə olar. Eyni zamanda, mən Prezident Tokayevlə söhbət zamanı Azərbaycanın istintaqla bağlı mövqeyini də bildirdim və bax, sizə dediyim məsələləri də onun diqqətinə çatdırdım ki, biz beynəlxalq ekspertizanın tərəfdarıyıq və heç cür bu məsələni Dövlətlərarası Aviasiya Komitəsinin sərəncamına verə bilmərik. Bu mövqe də anlayışla qarşılandı. Təbii olaraq, bizim dövlət qurumlarımızın nümayəndələri, komissiyanın üzvləri və rəhbərləri, prokurorluq orqanlarının nümayəndələri daim təmasdadırlar. Qazaxıstan da öz növbəsində Dövlət komissiyası yaratmışdır və Prezident Tokayev söhbət zamanı bu barədə mənə məlumat vermişdi. Onlar da təbii olaraq istəyirlər və çalışırlar ki, məsələ tam təfərrüatları ilə açılsın. Eyni zamanda, mən Prezident Tokayevə də başsağlığı verdim, çünki qəza nəticəsində altı Qazaxıstan vətəndaşı həlak olmuşdu. O da mənə başsağlığı vermişdi. Yəni, bu nə qədər ağır hadisə olsa belə, eyni zamanda, bir sınaq məsələsi idi. Yəni, bu sınaqdan kim necə çıxacaq? Mən şadam ki, yenə də bu faciəyə baxmayaraq, görürəm və əminəm ki, Qazaxıstanda da eyni fikirdədirlər. Bizim dostluğumuz, qardaşlığımız bu ağır vəziyyətdən sonra daha da gücləndi.

**-Qəzadan sonra AZAL şirkəti Rusiyanın bəzi şəhərlərinə uçuşları dayandırdı. Bəs, bu qərarın verilməsi hansı zərurətdən irəli gəldi və hazırda işlər necə gedir?**

-Bu göstərişi mən vermişəm və bunun əsas səbəbi təbii ki, təhlükəsizlik məsələləridir. Çünki Rusiyanın bir çox şəhərlərində vaxtaşırı hava məkanı bağlanır, orada xüsusi əməliyyat rejimi tətbiq edilir. Onlar buna “kavyor əməliyyatı” deyirlər və birinci sualda dediyim məsələlərə qayıdarkən onu da bildirməliyəm. Bir şeyin də üstü açılmalıdır ki, o “kavyor əməliyyatı” nə vaxt elan edildi? Çünki bizdə olan məlumata görə, artıq təyyarəmiz xarici təsirə məruz qaldıqdan sonra o “kavyor əməliyyatı” elan edilmişdi. Yəni, əgər bu belədirsə, bir daha göstərir ki, yerli xidmətlər bu məsələni ört-basdır etmək üçün etdilər.

AZAL-ın uçuşlarına gəldikdə, AZAL Rusiyanın yeddi şəhərinə öz uçuşlarını dayandırdı, müddətsiz olaraq. Eyni zamanda, biz Rusiya aviaşirkətlərinin üç Rusiya şəhərindən Azərbaycana uçuşlarını da dayandırmışıq. Deməli, toplam 10 şəhərlə bizim hava bağlantımız indi dayandırılıb və yenə də deyirəm, burada, ilk növbədə, təhlükəsizlik məsələləri ön plandadır. Biz sərnişinlərimizin təhlükəsizliyini həmişə ön sırada olan məsələ kimi qəbul etmişik və beləliklə, bu vəziyyət elan edildi. Biz nəyi ediriksə açıq-aydın edirik və yenə də deyirəm, bu qərar qəbul edildi və nə vaxt bu uçuşlar bərpa ediləcək, yoxsa yox, xüsusilə Qroznı şəhərinə bərpa ediləcək, yoxsa yox? Çox güman ki, yox. Amma bunu həyat göstərər və Rusiya hava məkanının təhlükəsizlik məsələləri də əlbəttə ki, nəzərə alınacaqdır.

**-Cənab Prezident, bəs ümumilikdə Azərbaycanın baş verənlərlə bağlı Rusiyadan gözləntiləri və tələbləri nədən ibarətdir?**

-Biz öz tələblərimizi açıq şəkildə Rusiya tərəfinə bildirmişik. Dekabrın 27-də artıq bu tələblər rəsmi qaydada onlara çatdırıldı. Bu, nədən ibarətdir? Birincisi, Rusiya tərəfi Azərbaycandan üzr istəməlidir. İkincisi, öz günahını etiraf etməlidir. Üçüncüsü, günahkarları cəzalandırmalıdır, cinayət məsuliyyətinə cəlb etməlidir və Azərbaycan dövlətinə və zərərçəkən sərnişin və ekipaj üzvlərinə təzminat ödəməlidir. Bu, bizim şərtlərimizdir. Onlardan birincisi artıq dünən təmin edildi. Mən ümid edirəm ki, digər şərtlərimiz də qəbul ediləcək. Bütün bu şərtlər ədalətlidir. Burada hər hansı bir fövqəladə tələb, yaxud da ki, məsələ yoxdur və bu, beynəlxalq təcrübəyə və normal insani davranışa əsaslanır. Bax, budur. Yenə də deyirəm, Azərbaycan ictimaiyyəti məsələnin bütün tərəfləri barədə məlumatlandırılacaq və məlumatlandırılır. Dediyim şərtlər də, bunlar təbii olaraq ictimaiyyətə sizin vasitənizlə çatdırılır və yenə də deyirəm, mən ümid edirəm ki, bizim şərtlərimiz qəbul ediləcək.

**-Çox sağ olun, cənab Prezident. Suallarımıza ətraflı şəkildə cavab verdiyiniz üçün minnətdarıq.**

-Sağ olun.

## “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə məxsus “Embraer 190” tipli sərnişin təyyarəsi Bakı-Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirərkən baş vermiş qəza zamanı yüksək peşəkarlıq və şücaət göstərmiş şəxslərin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü il dekabrın 25-də Bakı-Qroznı (Rusiya Federasiyası) reysini yerinə yetirən “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə məxsus “Embraer 190” tipli sərnişin təyyarəsi Rusiya Federasiyasının hava məkanında kənar fiziki və texniki müdaxiləyə məruz qalaraq idarəetməni itirmiş vəziyyətdə Qazaxıstan Respublikasının Aktau şəhəri istiqamətinə yönləndirilmişdir. İnsan tələfatı və xəsarət alanlar olmasına baxmayaraq, pilotların, bələdçilərin yüksək peşəkarlığı, şücaəti və cəsurluğu sayəsində təyyarə qəza enişi həyata keçirmiş və sərnişinlərin bir qismi xilas edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə məxsus “Embraer 190” tipli sərnişin təyyarəsi Bakı-Qroznı (Rusiya Federasiyası) reysini həyata keçirərkən baş vermiş qəza zamanı xidməti vəzifələrinin yerinə yetirilməsində, sərnişinlərin həyatının xilas edilməsində yüksək peşəkarlıq, şücaət və fədakarlıq göstərdiklərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**“Azərbaycanın Milli Qəhrəmanı” adı ilə:**

Kşnyakin İqor İvanoviç (ölümündən sonra)

Kalyaninov Aleksandr Georgiyeviç (ölümündən sonra)

Əliyeva Hökumə Cəlil qızı (ölümündən sonra)

**1-ci dərəcəli “Rəşadət” ordeni ilə:**

Əsədov Zülfiqar Sərdar oğlu

Rəhimli Aydan Vaqif qızı.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 29 dekabr 2024-cü il**

## Vladimir Putin Prezident İlham Əliyevə zəng edib

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Telefon danışığı zamanı dövlət başçıları “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması ilə bağlı məsələlərin müzakirəsini davam etdiriblər.



## Dövlət başçısı vida mərasimində iştirak edib

Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı-Qroznı istiqamətində uçan təyyarənin qəzaya uğraması nəticəsində həlak olan ekipaj üzvlərinin Heydər Əliyev Beynəlxalq Aeroportunda keçirilən vida mərasimində iştirak edib, onların ailə üzvlərinə və yaxınlarına başsağlığı veriblər.

# 2024-cü ilin mühüm siyasi hadisələri...

## Bu il Zəfər seçkiləri kimi tariximizə yazıldı



2024-cü il ölkəmiz üçün böyük uğurlarla yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyevin xalqımız qarşısındakı xidmətləri, qlobal səyləri, qətiyyəti və digər yüksək şəxsi keyfiyyətləri ölkəmizin əldə olunan nailiyyətlərini təmin edən mühüm amillərdir. Bu il, həm də bir sıra önəmli siyasi hadisələrlə əlamətdardır. Şübhəsiz ki, ilin ən mühüm siyasi hadisəsi fevralın 7-də keçirilmiş prezident seçkiləridir.

**7 fevral: Azad və ədalətli prezident seçkiləri**

Həmin seçkilər cəmiyyətimiz tərəfindən haqlı olaraq Zəfər seçkisi kimi qəbul edilir. Çünki fevralın 7-də müstəqil Azərbaycanın tarixində ilk dəfə respublikamizin suverenliyi və ərazi bütövlüyü tam bərpa olunmuş bir şəraitdə, işğaldan azad edilmiş regionlarımız da daxil olmaqla ölkənin hər bir bölgəsində prezident seçkiləri keçirildi. Azad, ədalətli və şəffaf şəraitdə keçirilən seçkilər ölkəmizin ictimai-siyasi həyatında müstəsna əhəmiyyətli hadisəyə çevrilib. Bu seçkilər respublikamızda Prezident İlham Əliyevin rəhbərliyi ilə əsas ümummilli ideyamızın həyata keçirildiyi bütöv bir mərhələnin yekunu və qarşıda yeni mühüm çağırışların dayandığı növbəti mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Prezident İlham Əliyev ailəsi ilə birlikdə Xankəndi şəhərində yaradılmış seçki məntəqəsində səs verdi.

Qeyd edək ki, prezident seçkilərində 7 namizəd mübarizə aparıb. Namizədlər




üçün seçki kampaniyasında bərabər şərait yaradılıb. Prezident seçkilərində şəffaflığın yüksək səviyyədə təmin olunması üçün digər vasitələrlə yanaşı, bütün respublika coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində internet vasitəsilə səsvermə prosesini əvvəldən-axıradək, fasiləsiz və birbaşa izləmək imkanı verən veb-kameralar quraşdırılıb. Prezident seçkilərinin müşahidəsinə 72 nüfuzlu beynəlxalq qurum və 89 ölkəni təmsil edən 790 beynəlxalq müşahidəçi qatılıb. Eyni zamanda, dünyanın 110 aparıcı xarici media subyektindən 217 təmsilçi MSK tərəfindən müvafiq lövhəciklə təmin edilərək seçkiləri izləyib.

**Erməni separatçılarının tabutuna vurulan son mismar!**

Seçkilərin müşahidəsinə, həmçinin çoxsaylı siyasi partiyaların, qeydə alınmış namizədləri, qeyri-hökumət təşkilatlarını, vətəndaş cəmiyyəti institutlarını və ictimai birlikləri təmsil edən, eyni zamanda, öz təşəbbüsləri ilə seçkilərə qatılmış 90 mindən artıq yerli müşahidəçi qatılıb. Seçkilərin müşahidəsində qeyri-hökumət təşkilatlarının yüksək fəallığı xüsusi diqqət çəkib.

Zəfər seçkisi 125 seçki dairəsi üzrə 6319-u daimi, 218-i müvəqqəti olmaqla, ümumilikdə 6537 seçki məntəqəsində keçirilib. Bu məntəqələrdən 47-si işğaldan azad olunmuş ərazilərdə, 49-u Azərbaycanın 37 xarici ölkədəki səfirlik, konsulluq və diplomatik nümayəndəliklərində yerləşib. Səsvermə günü seçicilər yüksək fəallıqla, azad və sərbəst şəkildə seçki məntəqələrinə gələrək öz iradələrini ifadə ediblər. Ümumilikdə ölkə üzrə seçicilərin 76,43 faizi səsvermədə iştirak edib. Mərkəzi Seçki Komissiyasının məlumatına əsasən, Prezident İlham Əliyev fevralın 7-də keçirilən seçkilərdə səslərin 92,12 faizini (4 milyon 567 min 458 səs) toplayaraq qələbə qazanıb. Seçkiləri müşahidə edən yerli və xarici müşahidə missiyaları bu siyasi kampaniyanın azad, demokratik və beynəlxalq standartlara uyğun keçirildiyini bəyan ediblər.

Fevralın 14-də isə Milli Məclisdə İlham Əliyevin andiçmə mərasimi keçirilib. Prezident mərasimdə çıxışı zamanı səsləndirdiyi xüsusi bir fikir tarixə öz möhürünü vurub. İlham Əliyev deyib ki, Xankəndidə verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi: "Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi".

**Müxtəlif ölkələrin liderlərinin təbriklərində nə deyilirdi?**

Prezident İlham Əliyevin seçkilərdə inamlı qələbəsi xalqımızın öz Liderinə etimadını və məhəbbətini növbəti dəfə nümayiş etdirdi. Bu seçkilərin nəticələri təkcə xalqımızın deyil, beynəlxalq ictimaiyyətin də dövlətimizin başçısına etimadını, onun qlobal miqyasda nüfuzunu, yalnız ölkə daxilində deyil, dünya miqyasında da sülhə və təhlükəsizliyə töhfə verən Lider olduğunu bir daha təsdiqlədi. Bunu seçkilərdən dərhal sonra dünyanın aparıcı ölkələrinin liderləri tərəfindən dövlətimizin başçısına ünvanlanan təbrik məktublarındakı fikirlər də sübut edir.

Məsələn, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısına ünvanladığı təbrik məktubunda qeyd edib: "Qardaş Azərbaycan xalqı tərəfindən yenidən lider seçilməyinizin təkcə ölkələrimiz arasındakı bənzərsiz münasibətlər baxımından deyil, bölgəmizin uzun illərdir ehtiyac duyduğu sülh və sabitliyin bərqərar olması baxımından da böyük bir nailiyyət olduğunu düşünürəm".

Rusiya Prezidenti Vladimir Putin məktubunda vurğulayıb: "Səsvermənin nəticələri Sizin yüksək siyasi nüfuzunuzu, Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı və onun mövqelərinin dünya arenasında möhkəmləndirilməsi üzrə həyata keçirdiyiniz kursa ümumxalq dəstəyini tam təsdiq edir".

Çin Xalq Respublikasının Sədri Si Cinpin isə təbrik məktubunda Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün dövlət quruculuğu təşəbbüslərində yeni nailiyyətlər əldə edəcəyinə əminliyini bildirib. Qeyd edib ki, son illər Çin-Azərbaycan münasibətləri öz inkişafının nümunəvi və sabit olması ilə fərqlənir. Yüksəksəviyyəli siyasi etimad mühiti yaranır, "Bir kəmər, bir yol" təşəbbüsünün birlikdə həyata keçirilməsində irəliləyiş, beynəlxalq münasibətlərdə sıx qarşılıqlı fəaliyyət müşahidə olunur.

Digər dövlət və hökumət başçıları - Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Belarus Prezidenti Aleksandr Lukaşenko, İtaliya Prezidenti Sercio Mattarella və Nazirlər Şurasının Sədri Ciorcia Meloni, İsrail Prezidenti İsxak Her-



soq, Rumıniya Prezidenti Klaus Verner İohannis, Koreya Respublikasının Prezidenti Yun Sok Yol, Serbiya Prezidenti Aleksandar Vuçiç, Yaponiyanın Baş naziri Fumio Kişida, Bolqarıstan Prezidenti Rumen Radev, Qırğızıstan Prezidenti Sadır Japarov, Macarıstanın Baş naziri Viktor Orban və başqaları təbrik məktublarında əmin olduqlarını bildiriblər ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti və xalqı dünyada mövcud olan çağırışların dialoq və konsensus yolu ilə həllinə bundan sonra da öz töhfəsini verəcək.

Beynəlxalq təşkilatların rəhbərlərinin təbrik məktublarında da dövlətimizin başçısının seçkilərdə inamlı qələbəsi yüksək qiymətləndirilib.

**VII çağırış Milli Məclisə keçirilən seçkilər...**

2024-cü ilin əlamətdar siyasi hadisələrindən biri də VII çağırış Milli Məclisə növbədənkənar seçkilərin keçirilməsi olub. Bu seçkilər Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsindən sonra ilk parlament seçkiləri idi.

Milli Məclisə seçkilər 125 seçki dairəsi və 6 min 478 seçki məntəqəsi üzrə keçirilib. Seçkilərdə 125 deputat mandatı uğrunda 990 namizəd mübarizə aparıb. Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, 3 min 469-u açıq, 2 min 37-si qapalı olmaqla, ümumilikdə 5 min 506 yer ayrılaraq namizədlərin ixtiyarına verilib.

Milli Məclisə seçkilərlə əlaqədar 119 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində veb-kameralar quraşdırılıb. İnternet istifadəçiləri istər ölkə daxilindən, istərsə də ölkə xaricindən MSK-nın internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan, real zaman rejimində seçki məntəqələrində səsvermə günü baş verən bütün prosesləri əvvəldən axıradək izləmək imkanına malik olublar. Parlament seçkiləri də azad və demokratik şəkildə baş tutub. VII çağırış Milli Məclisin ilk iclası isə sentyabrın 23-də keçirilib. Prezident İlham Əliyev iclasda iştirak edib.

**Noyabrda bələdiyyə seçkilərinə start verilib**

Bu il noyabrın sonlarında isə ölkəmizdə bələdiyyə seçkilərinə start verilib. Hazırda bələdiyyə seçkiləri kampaniyası qanunvericiliyə uyğun olaraq davam edir. Yerli özünüidarəetmə orqanlarına seçkilər gələn il yanvarın 29-da keçiriləcək.

Bütün bunları nəzərə alaraq 2024-cü ili seçkilər ili kimi də səciyyələndirmək mümkündür. Azərbaycanın müstəqillik tarixində bütün ərazilərimizi əhatə edən seçkilərin keçirilməsi yaddaşlara əbədi həkk olunan tarixi hadisədir. Bu seçkilər də azad və şəffaflığına, demokratikliyinə görə beynəlxalq aləmin diqqət mərkəzində olub.

**Azərbaycan mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkandır**

2024-cü il ölkəmizdə mühüm beynəlxalq tədbirlərin keçirilməsi ilə də yadda qaldı. Bu il Azərbaycanda 130 beynəlxalq tədbir keçirilib. Həmin mühüm tədbirlər mövzular üzrə təsnifatlandırılsa belə bir nəticə alınar: Siyasi mövzuda 27, iqtisadiyyata dair 24, elm-təhsil və mədəniyyət sahələri üzrə 41, ekologiya ilə bağlı 19, idman üzrə 12, səhiyyəyə aid 7 beynəlxalq tədbir təşkil olunub. Bu tədbirlərin əksəriyyətində Azərbaycan Prezidenti İlham Əliyev iştirak edib.

Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran Nizami Gəncəvi Beynəlxalq Mərkəzi artıq mühüm qlobal platformaya çevrilib. Belə tədbirlərdən biri də Azərbaycan Prezidentinin himayəsi və Mərkəzin təşkilatçılığı ilə bu il keçirilən "Parçalanmış dünyanın bərpası" mövzusunda XI Qlobal Bakı Forumudur. Açılış mərasimində dövlətimizin başçısının iştirak etdiyi Foruma 70-dən artıq ölkədən 350-dən çox qonaq qatılıb.



Prezident İlham Əliyev ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forumda, Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda, Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimində dərinməzmunlu çıxışlarında Azərbaycanın yaşıl dünya naminə həmrəyliyə, dünyadakı mövcud çağırışların dialoq yolu ilə həllinə verdiyi töhfələrdən, milli multikulturalizm modelinin dünyaya nümunə olmasından bəhs edib.

Çox önəmli siyasi xarakterli beynəlxalq tədbirlərdən biri də Türk Dövlətləri Təşkilatının (TDT) Xarici İşlər Nazirləri Şurasının Şuşada keçirilən qeyri-rəsmi iclası idi. Bu, TDT-nin Azərbaycanın işğaldan azad edilmiş Qarabağ torpağında baş tutan ilk yüksəksəviyyəli toplantısı olub. Tədbir çərçivəsində "Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsi" imzalanıb.

Şuşada keçirilən daha bir beynəlxalq tədbir - 2-ci Qlobal Media Forumu xüsusi qeyd olunmalıdır. "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusuna həsr olunan Forumda iştirak edən Prezident İlham Əliyev sualları cavablandırıb. 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyinin, 3 beynəlxalq təşkilatın və 82 media qurumunun nümayəndələrinin qatıldığı Forum iştirakçılar üçün birgə müzakirə və hərəkət platforması rolunu oynayıb.

Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlərdən biri də Prezident İlham Əliyevin tanış olduğu "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları sərgiləri idi.

**Cəmiyyətdə milli birlik və ictimai-siyasi sabitlik hökm sürür**

Azərbaycanda həyatın bütün sahələrində nailiyyətlərin əldə olunmasının əsas amilləri xalq-Prezident birliyi, cəmiyyətin ictimai şüurunda formalaşmış azərbaycançılıq təfəkkürünün möhkəmlənməsi və harmoniyadır. Bu baxımdan, 2024-cü ili Azərbaycan cəmiyyətinin həyatında yeni dövrün başlanğıcı hesab etmək olar. Cəmiyyətimizdə hökm sürən müsbət ab-hava dövləti gücləndirən əsas amillərdən biridir.

Ölkəmizdəki bugünkü sabitliyin, cəmiyyətin daxilində və dövlət-cəmiyyət münasibətlərindəki harmoniyanın təməlində milli və mənəvi birlik dayanır. Bu birlik vətəndaşlıq, dünyəvilik, tolerantlıq, çoxmədəniyyətlilik, vətənpərvərlik, ədalət kimi dəyərlərə söykənir. Təbii ki, bu birliyi və harmoniyanı Qarabağ Zəfəri daha da möhkəmləndirib. Azərbaycan Prezidenti bu barədə deyib: "Bizim birliyimizi pozmaq istəyənlər nə qədər cəhd göstərsələr də buna nail ola bilməyiblər və heç vaxt nail ola bilməyəcəklər. Çünki biz hamımız bir amal uğrunda birləşmişik".

Bu gün əminliklə deyə bilərik ki, ölkəmizdə möhkəm ictimai-siyasi birliyə, həmrəyliyə, harmoniyaya əsaslanan Azərbaycan modeli formalaşıb. Bu model Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsinə, demokratik və iqtisadi cəhətdən tərəqqisinə böyük töhfələr verir. Beləliklə, 2024-cü il Azərbaycan üçün Prezident İlham Əliyevin liderliyi ilə hərtərəfli tərəqqi və uğur ili kimi tarixə yazılacaq. Ölkəmizdə daxili siyasət nəticəsində əldə olunan nailiyyətlər, beynəlxalq arenada artan nüfuz və işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa işləri Azərbaycanın inkişaf modelinin səmərəliliyini bir daha nümayiş etdirir.

***Nardar BAYRAMLI***

# Milli Məclisin payız sessiyası başa çatıb

***Nardar BAYRAMLI***

Dekabrın 29-da Milli Məclisin payız sessiyasının son iclası keçirilib. İclasın gündəliyinə 10 məsələ daxil edilib. Əvvəlcə spiker Sahibə Qafarova bildirib ki, Prezident İlham Əliyevin Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması xalqımızın və dövlətimizin Konstitusiya dəyərlərinə və suverenlik prinsiplərinə sadiqliyini bir daha təsdiq edir. Onun sözlərinə görə, Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul edilmiş ilk Konstitusiyamız müasir Azərbaycanın hüquqi, demokratik və dünyəvi dövlət kimi formalaşmasında önəmli rol oynayıb.

"Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində və antiterror tədbirlərində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunması xalqımızın və dövlətimizin həyatında müstəsna əhəmiyyətli hadisə olub. Bu hadisə həm də ölkəmizin bütün ərazisində Konstitusiyamızın hüquqi qüvvəsinin bərpasını təmin edib. İnamla söyləmək olar ki, "Konstitusiya və Suverenlik İli" milli dövlətçilik şüurunun daha da möhkəmlənməsinə töhfə verərək, ölkə vətəndaşlarının ümumi dəyərlər və gələcəyə birgə baxış əsasında daha sıx birləşməsinə kömək göstərəcək. Ölkəmiz tarixi mirasına, ötən dövrdə əldə etdiyi nailiyyətlərə əsaslanaraq qlobal çağırışlara cavab vermə əzmini nümayiş etdirəcək", - deyə Milli Məclisin sədri qeyd edib.

Sonra millət vəkilləri cari məsələlərlə bağlı çıxış ediblər. Deputat Vüqar Bayramov bildirib ki, 2018-2024-cü illərdə Azərbaycanda müavinət və təqaüdlərdə 5 dəfə artım olub. Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncamla yeni sosial paketə start verilib. Paket ümumilikdə 3 milyon vətəndaşımızı əhatə edəcək. O cümlədən, 1,1 milyon vətəndaşın pensiyalarında artım olacaq. Bundan başqa, minimum əməkhaqqı yüksəldilməsi nəticəsində 700 mindən çox vətəndaşımızın maaşlarında artım baş verəcək. 2018-ci ilin əvvəlindən minimum əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyə qədər artıma nail olunub. Bu dinamika gələn il də davam edəcək.

Millət vəkili qeyd edib ki, 2025-ci ildə artımlar üçün əlavə olaraq 1,4 milyard manat ayrılacaq. Bu isə o deməkdir ki, 2018-ci ildən sonra dövlət başçısının göstərişi ilə reallaşdırılan sosial paketlərə 8.5 milyard manat əlavə vəsait ayrılır.

Parlamentin komitə sədri Siyavuş Novruzov isə çıxışında 2024-cü ilin xalqımız və dövlətimiz üçün əlamətdar il olduğunu bildirib. Onun sözlərinə görə, il ərzində prezident və parlament seçkiləri keçirilib, ölkəmizdə çoxsaylı beynəlxalq tədbirlər reallaşdırılıb.

Sonra gündəlikdəki məsələlər müzakirə olunub. İclasda "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə layihə birinci oxunuşda qəbul edilib. Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi BMT-nin Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması üzrə Komitəsinin 33-cü sessiyası çərçivəsində verilmiş tövsiyələrə uyğun hazırlanıb. Qanun layihəsinə əsasən, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununun 8.5-ci maddəsində "qanunsuz miqrantların saxlanılması" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi yerləşdirmə" sözləri ilə əvəz edilir.

Millət vəkilləri iclasın gündəliyində olan digər qanu layihələrini də qəbul ediblər.Sonda Milli Məclisin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə müraciəti qəbul edilib.

Həmçinin, Milli Məclis adından Dünya Azərbaycanlıların Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təbrik məktubları ünvanlanıb.

Parlamentin payız sessiyası Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

# İnkişaf salnaməsinin parlaq səhifəsi

## 2024-cü il ölkəmizin iqtisadi həyatında saysız uğurlarla yadda qalmaqdadır

## Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyat və sosial həyat sahələrində əldə olunmuş uğurlar Azərbaycanın 2024-cü ildə inkişaf salnaməsinin parlaq səhifələrindən biridir

Yola salacağımız il bir sıra sosial-iqtisadi yeniliklərlə zəngin oldu. Yanvar-noyabr aylarında əsas makroiqtisadi göstərici olan ümumi daxili məhsul (ÜDM) 4,1 faiz böyüyərək nominal həcm baxımından 113,2 milyard manatı ötüb. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,4 faiz, qeyri neft-qaz sektorunda isə 6,4 faiz artıb. Eləcə də sənayedə, xüsusən də qeyri-neft sənayesində artım meyilləri yüksəlib. Ötən 11 ay ərzində 60 milyard manata yaxın sənaye məhsulu istehsal edilib ki, istehsalın əsas mənbəyini 8,8 faiz artımla qeyri neft-qaz sektoru təşkil edir.

İqtisadiyyatın şaxələndirilməsi ilə bağlı yürüdülən siyasət öz müsbət təsirlərini göstərməkdədir və artıq ölkənin inkişafında ağırlıq mərkəzi tamamilə qeyri-neft sektorunun üzərinə transformasiya olunmaqdadır. Yaxınmüddətli iqtisadi inkişaf ssenarilərinə əsasən, neft-qaz sektorunun tədricən daralacağı şəraitində iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft gəlirləri olacaq və 2024-cü ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payının 72 faizə çatacağı proqnozlaşdırılır. Eyni zamanda, qeyri-neft resurslarının yüksək artımları müqabilində ilin sonunda ümumi daxili məhsulun 5-6 faiz təşkil edəcəyi fərz olunur.

### Yığım mənbələri genişlənib, xarici sərmayələrdə artım qeydə alınıb

2024-cü ilin 11 ayı ərzində biznesin aktivliyinin yüksəlməsi fiskal yığımların həcmini də artırıb, vergi orqanlarının xəttilə dövlət büdcəsinə 14 milyard 993 milyon manata yaxın vergi daxil olub. Büdcənin yığım mənbələri genişlənib. Eləcə də Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun yığımlarında əhəmiyyətli artımlar qeydə alınıb.

2024-cü ilin yanvar-noyabr aylarında əsas kapitala 15,9 milyard manat məbləğində investisiya yönəldilib. Bu dövrdə 4 milyard dollara yaxın xarici kapital cəlb edilib.

Xarici sərmayələrin xüsusilə qeyri-neft sektoruna yatırılması intensivləşib. Eləcə də sərmayələr daha çox yeni sənaye mərkəzlərinə, sənaye parklarına, o cümlədən azad edilmiş ərazilərdə fəaliyyət göstərən Ağdam Sənaye Parkına və Cəbrayıldakı "Araz Vadisi İqtisadi Zonası"na yönəldilir.

Cari ildə Türkiyənin "Gen İlaç ve Sağlık Urünleri Sanayi ve Ticaret A.Ş." şirkətinin iştirakı ilə Pirallahı Sənaye Parkında investisiya dəyəri 35 milyon ABŞ dolları olan layihənin, İsrailin "BioPharmax" şirkəti ilə əməkdaşlıq çərçivəsində Ələt Azad İqtisadi Zonasında dəyəri 45 milyon avro olan əczaçılıq zavodunun tikintisi layihəsinin icrasına başlanıb. Türkiyənin "Demirören" şirkəti ilə Laçında kiçik su elektrik stansiyalarının tikintisi layihəsi üzrə 15 milyon dollar dəyərində, İsrail şirkəti ilə aqrar layihəsi üzrə 20 milyon manat məbləğində investisiya sazişləri imzalanıb.



### Əhalinin gəlirləri artıb, inflyasiya isə sabit qalıb

2024-cü ilin ötən 11 ayının digər müsbət göstəricisi inflyasiya ilə bağlıdır. Bu dövrdə istehlak qiymətləri indeksi 4,4 faiz təşkil edib. Hesabat dövründə əhalinin nominal gəlirlərində, bank əmanətlərində, ünvanlı sosial yardımın məbləğində, muzdlu işçilərin orta aylıq əməkhaqqında da artımlar qeydə alınıb ki, bu da uğurlu sosial-iqtisadi dinamika hesab edilə bilər. İqtisadiyyatda çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,8 faiz artaraq 993,2 manat təşkil edib. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub. Əhalinin real gəlirləri və bank dividentlərindən qazancı da 7-10 faiz arasında artıb.

### "Əsrin müqaviləsi"nin yubiley ili...

Cari il iyunun 4-də Bakı Enerji Həftəsi start götürüb. Həftə tədbirləri çərçivəsində "29-cu Beynəlxalq Xəzər Neft və Qaz sərgisi", "12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi" və "29-cu Bakı Enerji Forumu" təşkil olunub, tədbirlərdə 37 ölkədən 300-dək şirkət iştirak edib. Dünyanın enerji sənayesi sahəsində mövcud olan liderləri bir araya gətirən Enerji Həftəsində mühüm sazişlər imzalanıb ki, bu da Azərbaycanın sərmayədarları vahid məkanda əlaqələndirən körpüyə çevrildiyini şərtləndirir.

Cari ildə ən əlamətdar hadisələrdən biri "Əsrin müqaviləsi"nin yubiley ilinin qeyd edilməsidir. Respublikamızın iqtisadi və siyasi həyatında, müasir enerji sənayesi tarixində yeni dövrün başlanğıcı hesab edilən "Əsrin müqaviləsi"nin imzalanmasından ötən 30 il ərzində Azərbaycan misilsiz uğurlar əldə edib. Azərbaycan neft bumunun təməli hesab edilən bu saziş Avropa bazarlarına neftlə yanaşı, qaz nəqlinə də cığır açıb, bölgədə enerji tranzitlərinin formatını müəyyənləşdirib. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum layihələri, TANAP, TAP kəmərlərinin reallaşması, Cənub Qaz Dəhlizinin enerji koridoru arxitekturasının yaradılması da məhz bu tarixi sazişin məntiqi nəticələridir.

### 12 ölkənin qaz təminatçısı

2024-cü ildə Azərbaycan region ölkələrinin və Avropa İttifaqının (Aİ) enerji təchizatında öz mövqeyini daha da möhkəmləndirib. Yanvar-noyabr ayları üzrə respublikamız xaricə ölkələrə qaz nəqlinin 5 faiz artıraraq həcm baxımdan 22,9 milyard kubmetrə çatdırıb. Mavi yanacağın 11,7 milyard kubmetri Avropaya, 9 milyard kubmetri Türkiyəyə, 2,2 milyard kubmetri isə Gürcüstana nəql edilib. Türkiyəyə TANAP-la bu müddətdə 5,1 milyard kubmetr qaz nəql olunub. Ümumilikdə, "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqlarından indiyədək 167,6 milyard kubmetr qaz ixrac edilib.



Azərbaycan cari il dekabrın 1-dən etibarən Avropa İttifaqının (Aİ) daha bir ölkəsinə - Slovakiyaya qazın nəqlinə başlayıb. Belə ki, Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən Slovakiyanın ən böyük dövlət enerji təchizatçısı olan "SPP" şirkətinə qaz təchizatına start verilib. Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniyadan sonra respublikamızın müəllifi olduğu qaz alyansına Slovakiya da qoşulub. Bununla da, enerji tədarükü siyasətini şaxələndirən Azərbaycanın maye yanacaqla təchiz etdiyi ölkələrin sayı 12-yə çatıb.

### "Yaşıl enerji"də yeni hərəkat

Yola saldığımız 2024-cü il enerji sahəsində, xüsusilə də "yaşıl enerji" sahəsində bir çox mühüm hadisələrlə yadda qalır. "Yaşıl dünya həmrəylik ili" çərçivəsində start verilən qərarlar "yaşıl enerji" sektorunda yeni müqavilələrin, anlaşma memorandumlarının imzalanması ilə nəticələndi. Dünyanın xarici şirkətləri və maliyyə institutları ilə investisiya sazişlərinin imzalanması "yaşıl enerji" sektorunda yeni mərhələnin əsasını qoydu.

İyun ayında keçirilən Bakı Enerji Həftəsində dünyanın ən nəhəng enerji şirkətlərindən biri olan Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) "Masdar" şirkəti ilə investisiya dəyəri 1 milyard dollara bərabər olan müqavilələrin imzalanması "yaşıl enerji" hərəkatında yeni dalğa kimi diqqəti cəlb etməkdədir. "Masdar"la imzalanmış sazişlərə əsasən, Biləsuvarda 445 MVt, Neftçalada 315 MVt gücündə iki günəş elektrik stansiyası, Qaradağda isə 240 MVt gücündə bir külək elektrik stansiyası inşa ediləcək. Bu layihələr ölkənin "yaşıl enerji" vizyonunun genişləndirilməsi prosesini sürətləndirməyə imkan verəcək, külək, günəş və "yaşıl hidrogen" layihələrinə investisiya cəlbinin artmasına və beynəlxalq əməkdaşlığın güclənməsinə səbəb olacaq.

Həmçinin, cari ildə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında "yaşıl enerji" layihəsi üzrə Səhmdarlar Sazişləri imzalanıb. 2024-cü il ərzində Azərbaycan "ACWA Power", "BP", "Fortescue Future Industries", "Nobel Energy", "Czech Engineering", "Baltech" və digər şirkətlərlə sazişlər də imzalayıb. İmzalanmış müqavilələrə əsasən, "yaşlı enerji" ilə bağlı əməkdaşlığa başlanılıb. Bu əməkdaşlıq sazişlərinin icrası çərçivəsində inşa olunan bərpa olunan enerjinin illik istehsalı yaxın 2 ildə 2 QVt-a, 5-6 il ərzində isə 4-5 QVt-a çatmış olacaq.




Eyni zamanda, cari ildə "yaşıl enerji"nin ixracını təmin edəcək "Xəzər-Qara dəniz-Avropa" dəhlizi istiqamətində mühüm addımlar atılıb, Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan hökumətləri arasında imzalanmış sazişə əsasən, Birgə Müəsssiə yaradılıb.

### Qarabağ və Şərqi Zəngəzurda "yaşıl sərmayə" dövrü başlayıb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və bp arasında Cəbrayılda 240 MVt-lıq "Şəfəq" Günəş elektrik stansiyasının inşasına dair sazişin imzalanması azad ərazilərdə "yaşıl enerji" hərəkətatına töhfə verən mühüm hadisə kimi qiymətləndirilə bilər. Bu layihə Cəbrayılın iqtisadi inkişafında mühüm mərhələ açmaqla, rayonun və bölgənin günəş enerjisi potensialından istifadəsinə, Şərqi Zəngəzurun enerji təminatının gücləndirilməsinə, Xəzər dənizi və Səngəçal terminalında karbon emissiyalarının azaldılmasına töhfə verəcək. Saziş, eyni zamanda Qarabağ və Şərqi Zəngəzurda sərmayələr üçün açar sazişi hesab oluna bilər.

Mövcud dəyərləndirmələr göstərir ki, Qarabağ və Şərqi-Zəngəzurda bərpa olunan enerji potensialına görə, digər bölgələrdən qat-qat zəngindir. Bu bölgə hidroenerji, külək və günəş enerjisi, termal suların mənbələrinə görə, ölkə üzrə resursların 30-40 faizinə malikdir. Həmin iqtisadi rayonlardan Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli günəş enerjisinə görə, ən əlverişli potensiala malikdir və enerji gücünün həcmləri 7200 MVt-dan artıq qiymətləndirilir.

Bundan başqa, Aİ-nin "Nobel Energy" şirkəti ilə imzalanmış sazişə əsasən, Cəbrayıl rayonunda 100 MVt gücündə günəş elektrik stansiyasının tikintisi və elektrik enerjisi istehsalı mərkəzi yaradılacaq. Laçın və Kəlbəcərin dağlıq ərazilərində həcmi 2000 Mvt proqnozlaşdırılan külək enerjisi stansiyası layihəsi reallaşmaqdadır.

Onu da xatırladaq ki, bu il ərzində ilk dəfə Şuşa, Xocalı, Cəbrayıl və Xankəndiyə qayıdış baş tutdu və burada mühüm iqtisadi-sosial obyektlər istifadəyə verildi. Kəlbəcərdə "İstisu" mineral su zavodunun açılışı ən mühüm iqtisadi uğurlardan biridir. Bölgədə iqtisadi hərarət daha da artır ki, bu da artıq azad ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyasının uğurla davam etməsini təsdiqləyir.

### Türk Dövlətlərinin Bəyannaməsi...

2024-cü il iyulun 6-da Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) qeyri-rəsmi Zirvə görüşü çərçivəsində imzalanan "Qarabağ Bəyannaməsi" geoiqtisadi-siyasi məzmununa görə, ilin ən yaddaqalan sazişlərindən biri kimi səciyyələndirilə bilər. Qarabağ Bəyannaməsi türk dövlətləri arasında ticarət əlaqələrinin genişləndirilməsi və iqtisadi əməkdaşlığın dərinləşdirilməsi üçün mühüm prinsipləri özündə ehtiva edir. Bəyannamə çərçivəsində həyata keçiriləcək tədbirlər ölkələr arasında ticarət maneələrinin azaldılması, nəqliyyat və logistika infrastrukturunun təkmilləşdirilməsi, investisiya mühitinin yaxşılaşdırılması istiqamətində vacib addımların atılmasını nəzərdə tutur.

Cari ildə həmin sənədin icrası istiqamətində nəticə əsaslı addımlar atıldı, Türk İnvestisiya Fondu, TDT-nin Mərkəzi Banklar Şurası, Vahid Gömrük İttifaqının, Fintex Alyansının əsası qoyuldu. Rəqəmsal Tranzit Dəhlizinin yaradılması, digər prioritetlərin icrası istiqamətində tədbirlər davam etdirilməkdədir.

### Çin-Azərbaycan iqtisadi tərəfdaşlığında yeni mərhələ

İyunun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin imzalanması da cari ilin ən mühüm iqtisadi hadisələrindən sayıla bilər. Bu saziş Azərbaycan-Çin münasibətlərinin iqtisadi vizyonunu tamamilə yeni çağırışlar əsasında formalaşdırmaqdadır. Bəyannamədə iqtisadi sahələrdə əməkdaşlığın genişləndirilməsi, ticari dövriyyəsinin yüksəldilməsi, beynəlxalq iqtisadi münasibətlər sistemində qarşılıqlı fəaliyyətin gücləndirilməsi və əlaqələndirilməsi, iki ölkənin ümumi iqtisadi mənafe və maraqlarının təşviqi kimi fundamental prinsiplər öz əksini tapıb. Eləcə də "Bir kəmər, bir yol" layihəsinin ən strateji mərkəzi olan Orta Dəhlizdə Azərbaycanın mövqeyinin möhkəmlənməsi üçün yeni imkanlar yaradır.

Saziş Çin-Azərbaycan iqtisadi-investisiya əlaqələrində yeni dinamika yaradıb və Çin şirkətləri ilə mühüm sərmayə memorandumları imzalanıb. Belə ki, cari il ərzində Azərbaycanla Çinin "China Southern Power Grid International Co.,Ltd", "China Energy International Group Co.,Ltd", "Powerchina Huadong Engineerıng Corporation Limited", "China Datang", "BYD Company Limited", "China Gezhouba Group Overseas Investment" və digər şirkətlərlə Anlaşma memorandumları imzalanıb. Sənədlər ölkəmizdə sənaye miqyaslı günəş enerjisi, quruda və dənizdə külək enerjisi, enerji saxlama və inteqrasiya olunmuş "ağıllı" enerji sistemləri, həmçinin "yaşıl hidrogen" istehsalı layihələrinə investisiya qoyuluşunu nəzərdə tutur.

### "Yaşıl enerji"də rekord istehsal

Yeri gəlmişkən, 2024-cü ilin 11 ayında "yaşıl enerji" istehsalında rekord həcmdə artımlar qeydə alınıb. Bu dövrdə "yaşıl enerji" mənbələri üzrə elektrik enerjisi istehsalı ötən ilin müvafiq dövrünə nisbətən 1,6 milyard kVt·st və ya 80 faizdən çox artaraq 3 milyard 580,6 milyon kVt·st təşkil edib.




Bərpaolunan enerji portfelində su elektrik stansiyalarının (SES) payı xüsusi üstünlük təşkil edir. SES-lər tərəfindən 2 milyard 780 milyon kVt·st enerji istehsal olunub ki, bu son illərin ən yüksək göstəricisidir. Külək elektrik stansiyalarında istehsal 48,6 milyon kVt·st, günəş elektrik stansiyalarında 540 milyon kVt·st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 211 milyon kVt·st təşkil edib.

Hazırda "yaşıl enerji"nin payı ölkə üzrə ümumi enerji balansında 15 faizə bərabərdir. Hədəf isə bərpaolunan enerjinin payını 2030-cu ilə qədər 2 dəfə artırmaqdır.

### COP29 uğuru...

Azərbaycan cari ildə beynəlxalq iqlim ailəsinin etimad göstərərək həvalə etdiyi COP29 sammitini ən yüksək və mütəşəkkil təşkilatçılıq qabiliyyəti ilə keçirdi və dünya COP hərəkatına öz layiqli möhürünü vurdu. İki həftə ərzində aparılan gərgin müzakirələr və məsləhətləşmələr, açıq dialoq mühitində rəsmi Bakının irəli sürdüyü iqtisadi-maliyyə məzmunlu təşəbbüslər və çağırışlar da öz müsbət nəticəsini verdi. Sessiya çərçivəsində Bakı Maliyyə Məqsədinin və "İtki və Zərər" Fondunun yaradılması, 1,3 trilyon dollar məbləğində İqlim Maliyyəsi Fondunun portfelinin formalaşması, Yeni Kollektiv Kəmiyyət Məqsədinin, İqlim Davamlılığı üçün İnsan İnkişafı üzrə Bakı Təşəbbüsünün, Bakı Qlobal İqlim Şəffaflığı Platformasının, COP29-un İqlim Maliyyəsi, İnvestisiya və Ticarət üzrə Bakı Təşəbbüsünün təsis edilməsi inanılmaz uğurlar kimi qiymətləndirilə bilər.

Cari il ərzində Azərbaycan digər uğurlara da imza atdı ki, onların hər birini sadalamağa uzun vaxt lazımdır. Ümumilikdə isə yekun olaraq yola saldığımız 2024-cü il Azərbaycanın iqtisadi həyatında əlamətdar illərdən biri kimi tarixə həkk olunacaq. Prezident İlham Əliyevin liderliyi ilə inkişaf edən ölkəmizin tərəqqi və rifah ili kimi xatırlanacaq.

**ELBRUS CƏFƏRLİ**

# Milyonlarla qəlbdə döyünən bir ürək

Təqvimdə elə günlər var ki, bir xalq olaraq bizim üçün müstəsna önəm daşıyır. İlin son günü - 31 dekabr belə tarixlərdən biridir. Təkcə ona görə yox ki, həyatımıza yeni il gəlir, qəlbimizdə yeni arzular, diləklər baş qaldırır. Bu günü bizim üçün xüsusi əlamətdar edən daha mühüm səbəb isə 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi müəyyənləşdirilməsidir.

Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası "Azərbaycanlıların həmrəyliyi günü haqqında" tarixi qərarı 1991-ci il dekabrın 25-də qəbul edib. Bəhs olunan sənədlə qərara alınıb ki, hər il dekabr ayının 31-i bütün dünyada yaşayan azərbaycanlıların həmrəyliyi günü elan edilsin. Həmin vaxtdan etibarən dünyanın ayrı-ayrı nöqtələrində yaşayan on milyonlarla azərbaycanlının qəlbində ana Azərbaycana böyük məhəbbətlə eyni bir ürək döyünür.

## 1989-cu il dekabrın son günlərində...

Azərbaycanlılar tarix boyunca bir çox haqsızlıqlara, təzyiqlərə, soyqırımlarına məruz qalıblar. Məhz imperialist güc mərkəzlərinin məkrli planlarının nəticəsidir ki, zaman-zaman tarixi torpaqlarımız zəbt olunub, bizim iradəmizdən kənarda ana Vətən bölünüb. Ancaq biz həm də Vətən, torpaq sevgisi son dərəcə böyük olan bir xalqıq. Yadellilərin planları nə qədər məkrli, iblis xislətli olsa da, bizim qan yaddaşımızdan torpaq sevgisini, yurd həsrətini silə bilməyib. Araza baxıb köks ötürmüşük, xəyallarımızda o tayla bu tayı həmişə bütöv sanmışıq.

Ötən əsrin səksəninci illərinin sonlarına doğru keçmiş ittifaq məkanında adi olmayan proseslər gedirdi. Xalqların özünüdərk, özünütəsdiq hissləri güclənmişdi. Azərbaycan da milli azadlıq hərəkatının bu və ya digər şəkildə açıq müstəviyə keçdiyi respublikalar sırasında yer alırdı. Beləliklə, keçmiş SSRİ-nin süqutu ərəfəsində - 1989-cu il dekabrın son günlərində Araz sahillərində yaddaşımızda əbədi qalacaq hadisələr yaşandı. Arazın o tayından və bu tayından olan azərbaycanlılar onları ayıran tikanlı çəpərləri dağıtdılar. Hava soyuq və şaxtalı olsa da, Arazın sahilində bir-birinə qovuşan azərbaycanlılar günlərlə orada qaldılar və birləşmək istədiklərini bütün dünyaya bəyan etdilər. 31 Dekabr-Dünya Azərbaycanlılarının Həmrəylik Günü də məhz xalqımızın birləşmək istəyini simvolizə edir.

## Heydər Əliyevin milli birlik mücadiləsi

Böyük siyasətçi olan Heydər Əliyevin Azərbaycan qarşısında çox mühüm xidmətlərindən biri də xalqımıza milli kimlik, azərbaycançılıq ideologiyasını aşılamasıdır. Bir tərəfdən Onun parlaq şəxsiyyəti azərbaycanlılar üçün böyük qürur mənbəyi idi. Digər tərəfdən, Heydər Əliyev hələ keçmiş sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdən başlayaraq dilimizə, mədəniyyətimizə, ədəbiyyatımıza sonsuz qayğı göstərməklə xalqa milli ideya aşılayırdı.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd edilməsi ideyası da Heydər Əliyevə məxsusdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il dekabrın 16-da Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə tarixi qərar qəbul edildi. Təbii ki, təşəbbüs bilavasitə Heydər Əliyevin Özündən gəlmişdi. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Azərbaycan Respublikasının Ali Sovetinə müraciət ünvanlayıb. Dekabrın 25-də Ali Sovetin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib.




Dünya azərbaycanlılarının həmrəyliyi ideyasının banisi olan Heydər Əliyev eyni zamanda bu birliyin institutlaşması prosesinin də əsasını qoyub. Onun təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına öz müsbət təsirini göstərdi. Bu təşəbbüs Azərbaycanın dövlət siyasətinin yeni bir istiqamətinə çevrildi. Qurultaydan sonra Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirdi.

Zamanında Heydər Əliyevin əsasını qoyduğu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən eyni ardıcıllıqla davam etdirlir. Xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsini dövlət siyasətinin mühüm istiqamətinə çevirmiş Prezident İlham Əliyev mövcud sosial-iqtisadi inkişaf şəraitində diaspor quruculuğu sahəsində dövrlə səsləşən genişmiqyaslı tədbirlər həyata keçirir. Dövlət

## Birliyin təsisatlanması istiqamətində atılan addımlar

başçısı xaricdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını Azərbaycan dövlətinin başlıca vəzifəsi kimi müəyyənləşdirib. Prezident İlham Əliyevin bu istiqamətdə ortaya qoyduğu siyasi iradə ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəlməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında daha sıx səfərbər olmalarına böyük töhfə verir. Hədəf xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsidir. Prezident İlham Əliyevin 2018-ci il 6 iyul tarixli fərmanı ilə Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondu yaradılıb. Bu fond Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə dəstək vermək, onların maddi-texniki bazasını möhkəmləndirmək, milli-mənəvi dəyərlərimizi inkişaf etdirmək və dünyada daha geniş tanıtmaq, xaricdə yaşayan azərbaycanlıların sosial müdafiəsini gücləndirmək, bu sahəyə dövlət dəstəyinin ünvanlılığını təmin etmək məqsədilə yaradılıb. Dövlət başçımızın təşəbbüsü ilə 2019-cu ildə "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı təsis edilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi dünya azərbaycanlılarının yeni bir qürur mənbəyinə çevrilib. Dünya azərbaycanlılarının 2001-ci ildə Bakıda keçirilən birinci qurultayında Heydər Əliyev əminliklə bildirib ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Bu missiyanı xalqımız dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə reallaşdırmağa nail oldu. Soydaşlarımız son dərəcə qürurludurlar ki, uzun işğal illərindən sonra dünya azərbaycanlılarının V qurultayı azad Şuşada keçirildi. 22 aprel 2022-ci ildə baş tutan qurultay tarixdə Zəfər Qurultayı kimi qalacaq.

***Mübariz FEYİZLİ***

# Sülh üçün təməl...

## Azərbaycan 2024-cü ildə digər ərazilərinin də müharibəsiz azad edilməsinə nail oldu

Post-müharibə dövründə sülh prosesinin inkişaf etdirilməsi və nəticələndirilməsi, Ermənistan ilə Azərbaycan arasında 30 il idi ki, baş tutmayan delimitasiya və demarkasiya işlərinə start verilməsi 2024-cü ilin ən mühüm prioritetlərindən sayılırdı. Cari ildə bu istiqamətdə bir sıra addımlar atıldı ki, bu, iki dövlətin müvafiq delimitasiya komissiyaları arasında baş tutan görüşləri, aparılan müzakirələr və əldə edilən razılaşmalar fonunda qabarıq nəzərə çarpdı. Bu fakt göstərdi ki, üçüncü tərəfin iştirakı olmadan Azərbaycan və Ermənistan öz aralarında vacib məsələlərlə bağlı razılıq əldə etmək imkanındadır.

## 4 kənd bir güllə atılmadan qaytarıldı...



Bu ilin aprelin 19-da delimitasitya komissiyaları arasında baş tutmuş 8-ci görüş mühüm tarixi yeniliklərlə yadda qaldı. Görüşdə delimitasiya prosesinin ilkin mərhələsində sərhəd xəttinin ayrı-ayrı hissələrinin Sovet İttifaqı dövrünə mövcud olduğu hüquqi cəhətdən əsaslandırılmış respublikalararası sərhədə uyğun olaraq Bağanis (ER) - Bağanıs Ayrım (AR), Voskepar (ER) - Aşağı Əskipara (AR), Kirants (ER) - Xeyrımlı (AR) və Berkaber (ER) - Qızılhacılı (AR) yaşayış məntəqələri arasında bilavasitə keçməsi razılaşdırıldı. Beləliklə, 2024-cü il aprelin 19-da iki ölkənin yenə də heç bir vasitəçi olmadan sərhədlərin delimitasiyası üzrə işçi qrup səviyyəsində qəbul etdikləri bəyanat və bunun əsnasında keçən əsrin 90-cı illərinin əvvəllərindən Ermənistanın işğalı altında olan 4 kəndin Azərbaycana qaytarılması növbəti uğur kimi tarixə yazıldı.

## Vətən müharibəsindən başlanan yol uğurla inkişaf etdirilir...

Qalib Azərbaycan 2024-cü ildə də yeni tarix yazmaqda davam etdi. Artıq bir güllə belə atılmadan kəndlərimiz geri alınırdı. Bu, Qalib Xalqın Qalib Lideri olan Prezident İlham Əliyevin tarixi uğurudur. 2020-ci Vətən müharibəsindən başlanan yol uğurla davam və inkişaf etdirilir. Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın əldə etdiyi tarixi qələbələr yeni inkişaf mərhələsinin başlanğıcını qoyur. 2023-cü ilin aprelində Laçın sərhəd-buraxılış məntəqəsinin qurulması ilə başlanan sərhədlərimizin müəyyənləşdirilməsi, leqallaşdırılması prosesi 2024-cü ilin aprelində qeyri-anklav kəndlərin qaytarılması ilə davam etdi. Bu, Azərbaycanın yeni dövrdə yeni nailiyyətlərinin təməli kimi tarixə yazıldı.









## XİN-in mətbuat buraxılışı: delimitasiyası və demarkasiyası sahəsində müsbət nəticələr əldə edilib

Yeri gəlmişkən, Xarici İşlər Nazirliyinin (XİN) 2024-cü ilin yekunlarına dair mətbuat buraxılışında bu məqama xüsusi yer ayrılıb. Bildirilib ki, 2024-cü il ərzində Ermənistan ilə Azərbaycan arasında bir-birinin suverenliyi, ərazi bütövlüyü və dövlət sərhədlərinin qarşılıqlı tanınması, hörmət edilməsi əsasında münasibətlərin normallaşdırılması ilə bağlı Azərbaycan tərəfindən irəli sürülmüş gündəlik davamlı olaraq irəliləd-ilib. Qeyd edilib ki, ölkəmizə qarşı Ermənistan və onun havadarları tərəfindən aparılan qarayaxma kampaniyasının qarşısının alınması, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı təhdidlərin neytrallaşdırılması istiqamətində addımların beynəlxalq ictimaiyyətə izah edilməsi və bu addımları sual altına almaq və məhdudlaşdırmaq cəhdlərinin qarşısının alınmasına yönəlmiş ardıcıl, sistemli və qətiyyətli xarici siyasət həyata keçirilib. İl ərzində Azərbaycan tərəfindən irəli sürülmüş normallaşma gündəliyi birbaşa ikitərəfli danışıqlar yolu ilə ardıcıl, məqsədyönlü şəkildə Azərbaycan Respublikasının milli maraqlarına uyğun şəkildə irəlilədilib.

XİN qeyd edir ki, tərəflər arasında aparılan ikitərəfli danışıqlar nəticəsində sazişin mətni üzrə əhəmiyyətli irəliləyiş əldə edilib. Nəticə etibarilə, sazişin mətnində açıq qalan məsələlər ciddi şəkildə azalıb. İl ərzində sərhədlərin delimitasiyası və demarkasiyası sahəsində müsbət nəticələr əldə edilib. İki ölkənin Baş nazirlərinin müavinlərinin rəhbərlik etdiyi Azərbaycan və Ermənistanın sərhədlərin delimitasiyası ilə məşğul olan komissiyaların əldə etdiyi razılığa əsasən, Azərbaycanın Ermənistanın işğalı altında olan Bağanıs-Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin Azərbaycanın suveren nəzarətinə qaytarılması təmin edilməklə, dövlət sərhədinin 13 kilometrə qədər hissəsinin delimitasiya və demarkasiyası aparılıb. Sözügedən razılıq Ermənistan tərəfindən işğal altında olan ərazilərin ikitərəfli danışıqlar yolu ilə qaytarılması və iki dövlət arasında rəsmi dövlət sərhədinin bir qisminin delimitasiya və demarkasiyasını təsbit edən ilk nəticə kimi əlamətdar olub.

***P.İSMAYILOV***

# Beş milli prioritetdən biri - Böyük Qayıdış

Yeni strateji mərhələdə respublikamızın qarşısında duran 5 milli proritet müəyyənləşdirib ki, onlardan biri də işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsidir. Azərbaycan hökuməti soydaşlarımızın yurd yerlərinə qayıdışını layiqli şəkildə və qısa müddətdə həyata keçirmək əzmindədir. Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixində imzaladığı müvafiq sərəncamla "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiqlənib. Dövlət Proqramına uyğun olaraq ərazilərin minalardan təmizlənməsi, yeni infrastrukturun qurulması, yaşayış məntəqələrinin, tarixi abidələrin bərpası, istehsal müəssisələrinin yaradılması istiqamətində genişmiqyaslı layihələr həyata keçirilir. Proqramın icrası artıq sonuna çatdığımız 2024-cü ildə də böyük uğurla davam etdirilib.

## İl ərzində baş tutan müntəzəm səfərlər

Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərə 2024-cü ildə ilk səfərini fevralın 26-da Xocalı şəhərinə edib. Prezident İlham Əliyev burada rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, sonra Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoyub, sakinlərlə birlikdə şəhərdə aparılan tikinti işlərinin gedişi ilə tanış olub.

Prezident İlham Əliyev və Azərbaycana səfərə gələn Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev martın 12-də Füzuli rayonunda olublar. Füzuli şəhərinin Baş planı ilə tanış olan dövlət başçılarına məlumat verilib ki, 2040-cı ilədək Füzuli şəhərinin inzibati ərazisinin 1943 hektara, əhalisinin 50 min nəfərə çatdırılması nəzərdə tutulur. Azərbaycan və Qazaxıstan prezidentləri Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak edirlər. Həmçinin prezidentlərə Füzulidə inşa olunacaq Mərkəzi Rayon Xəstəxanası barədə məlumat verilib. Bildirilib ki, 180 çarpayılıq yeni xəstəxananın inşasında Qazaxıstanın "BI Group" şirkəti də iştirak edəcək.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin yenidən qurulması işinə Özbəkistan və Qazaxıstanla bərabər, Qırğızıstan da fəal şəkildə qoşulub. Belə ki, aprelin 25-də Prezident İlham Əliyev və Prezident Sadır Japarov Ağdamın Xıdırlı kənd tam orta məktəbin təməlini qoyublar. Bu məktəb Qırğızıstan Prezidentinin təşəbbüsü ilə inşa olunur.

Mayın 10-da-Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü günündə də Prezident İlham Əliyev işğaldan azad olunmuş torpaqlarımıza səfər edib. Dövlətimizin başçısı bu səfərdə Füzuli rayonunda Köndələnçay su anbarları kompleksinin, Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda inşa edilmiş birinci tunelin, Şuşada "Şirin su" hamamının, Mamayı məscidinin açılışlarında iştirak edib, şəhərdə inşa olunacaq üçüncü yaşayış kompleksinin və Turşsu qəsəbəsinin təməllərini qoyub.

Ümumiyyətlə, Prezident İlham Əliyevin il ərzində işğaldan azad olunmuş ərazilərə səfərlərinin sayı kifayət qədər çoxdur. Bu siyahıya həmçinin Şuşaya, Laçına, Cəbrayıla, Zəngilana, Ağdama, Kəlbəcərə səfərlər də daxildir. Bu səfərlər zamanı dövlətimizin başçısı çoxsaylı təməlqoyma və açılış tədbirlərinə qatılıb, dövlət qayğısı sayəsində yurd yerlərinə dönən insanlarla görüşərək fikir mübadiləsi aparıb. Dövlətimizin başçısının Xankəndinə səfəri də əlamətdar hadisələrlə yadda qalıb. Sentyabrın 20-də - Dövlət Suverenliyi Günündə Prezident İlham Əliyev




Xankəndi şəhərində Qarabağ Universitetinin və bu ali məktəbin tələbə yataqxanasının təmirdən sonra açılış mərasimində iştirak edib, Universitetin müəllim və tələbə heyəti ilə görüşüb.

## Şuşaya və Xocalıya ilk köç

Hər iki ünvanda infrastrukturun qurulmasına və yaşayış məntəqələrinin bərpasına vaxt itirilmədən başlanıldı. Əlamətdar haldır ki, bu şəhərlərə ilk köç məhz 2024-cü ildə baş tutub. Şuşaya ilk sakinlər may ayının 9-da köçürülüb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Şuşada birinci yaşayış kompleksinin açılışında iştirak edib və şəhərə köçmüş ilk sakinlərlə görüşüblər. Görüşdə diqqətə çatdırılıb ki, ilkin mərhələdə birinci yaşayış kompleksinə köç qrafikinə əsasən 20 ailə olmaqla 88 nəfər köçürülüb. İyirmi üç binadan ibarət yaşayış kompleksində 450 mənzil var. Şuşaya ilk köç edən ailələrlə görüşən dövlətimizin başçısı mənzillərin açarlarını sakinlərə təqdim edərək deyib: "Qarabağ və Şərqi Zəngəzur bölgələri nəinki Azərbaycanın, Qafqazın, dünyanın ən gözəl yerlərindən biri olacaq - ən müasir, ən rahat, ən gözəl. Buranın təbiəti, gözəl mənzərələri, yaşıllıqlar, bulaqlar müasir və eyni zamanda, ənənəvi üslubda inşa edilən binalarla tamamlanır. Elə bir gözəl şəhər yaradılır ki, əminəm, hər birimiz, hər bir azərbaycanlı bununla fəxr edəcək".

Xocalıya ilk köç isə cari ilin 28-29 may tarixlərində bu şəhərə 44 ailə və ya 169 nəfərin yola salınması ilə başlayıb. Artıq Xocalı rayonunun Ballıca kəndinin də məskunlaşdırılmasına start verilib. Dekabrın 12-də kəndə soydaşlarımızın köçü baş tutub. İlk mərhələdə köçürülən 152 nəfərdən ibarət 27 ailəyə mənzillərin açarları təqdim edilib. Həmçinin dekabr ayında Şuşa şəhərinə yeni köç karvanları yola salınıb.

2024-cü ildə digər şəhər və kəndlərdə də qaçqın və məcburi köçkün soydaşlarımızın məskunlaşdırılması təmin edilib. Cari ilin hesabatı aparılmış ilk üç rübü ərzində işğaldan azad olunmuş ərazilərə geri qayıdan vətəndaşlarımızın sayı 3826 nəfərə (1042 ailə) çatıb. Bütövlükdə, postmüharibə mərhələsində I Böyük Qayıdış Proqramı 10 minədək soydaşımızı əhatə edib. 2026-cı ilədək isə 34 min 500 ailənin və ya 140 min vətəndaşımızın köçürülməsi nəzərdə tutulub.

***Mübariz ABDULLAYEV***

# Dayanıqlı iqtisadiyyat, sabit məzənnə, birrəqəmli inflyasiya...

## Mərkəzi Bank (MB) 2025-ci ildə pul siyasətinin əsas istiqamətləri barədə bəyanat yayıb

Mərkəzi Bank (MB) 2025-ci il üçün pul siyasətinin əsas istiqamətləri barədə bəyanat yayıb. 2025-ci ilin pul siyasətinin əsas istiqamətləri növbəti ilə qlobal iqtisadiyyat, habelə ölkənin xarici balansı, fiskal və real sektorları üzrə proqnozları nəzərə alınmaqla tətbiq ediləcək. BVF-nin 2024-cü il oktyabr hesabatına əsasən, 2025-ci ildə qlobal iqtisadiyyatda artım 3,2 faiz səviyyəsində olacaq ki, bu da daha öncəki proqnozla müqayisədə 0,1 faiz bənd azdır. Hesabatda iqtisadi artımın inkişaf etmiş ölkələrdə 1,8 faiz, inkişaf etməkdə olan ölkələrdə isə 4,2 faiz olacağı proqnozlaşdırılır.

2025-ci ildə Azərbaycan iqtisadiyyatının real sektorunda artımın davam edəcəyi proqnozlaşdırılır. Mərkəzi Bankın 2024-cü ilin oktyabr proqnozlarına görə, 2025-ci ildə real iqtisadi artım tempinin 3,3 faiz, o cümlədən qeyri-neft sektoru üzrə 5,1 faiz olacağı gözlənilir. Hökumətin, beynəlxalq maliyyə-kredit təşkilatlarının və aparıcı reytinq agentliklərinin də Azərbaycandakı iqtisadi artımın perspektivləri ilə bağlı gözləntiləri nikbindir.

### Manatın məzənnəsi ilə bağlı gözləntilər

2025-ci ildə də pul siyasətinin ötürücülüyündə məzənnə kanalının başlıca rol oynayacağı gözlənilir. Manatın nominal effektiv məzənnəsi inflyasiya idxalına əhəmiyyətli təsir göstərən amillərdən biri olaraq qalacaq. Beynəlxalq analitik mərkəzlərin ikitərəfli məzənnələr üzrə proqnozları əsasında aparılan son hesablamalara görə, 2025-ci ildə də manatın nominal effektiv məzənnəsi möhkəmlənmə istiqamətində dəyişəcək.

2025-ci ildə də qiymət sabitliyinin başlıca xətti manatın ABŞ dollarına nəzərən ikitərəfli məzənnəsi banklararası əqdlər üzrə orta məzənnə əsasında (hərraclar) müəyyən ediləcək. Mərkəzi Bankda Dövlət Neft Fondunun valyuta satışlarının həyata keçirilməsi üzrə hərracların keçirilməsi davam etdiriləcək. Əvvəlki illərin təcrübəsinə uyğun olaraq dövlətin valyuta tələbi və təklifinin dəyişimindən asılı olaraq Mərkəzi Bank 2025-ci ildə də valyuta bazarında valyuta satışı və alışları həyata keçirə bilər.

Bank sistemindəki likvidliyin idarə edilməsində daimi imkan alətləri, açıq bazar əməliyyatları istifadə ediləcək, bu sektorunda gözlənilən struktur profisiti ilə əlaqədar olaraq növbəti ildə də Mərkəzi Bankın sterilizasiya yönümlü alətlərinə tələbatın olacağı ehtimalı yüksəkdir. Bununla belə, struktur profisiti struktur kəsiri ilə əvəzləndiyi təqdirdə arsenalda olan likvidliyin verilməsi alətləri açıq bazar əməliyyatları çərçivəsində işə düşəcək.

### İnflyasiya ilə bağlı proqnozlar

MB-nın bəyanatında bildirilir ki, növbəti ildə pul siyasəti qiymət sabitliyinin təmin edilməsinə, inflyasiyanın müəyyən edilmiş hədəf daxilində sabitləşməsinə yönəldiləcək, bu istiqamətdə islahatlar davam etdiriləcək. BVF-nin son proqnozlarına görə, dünya üzrə inflyasiyanın 2025-ci ildə 4,3 faizə enəcəyi gözlənilir. Ümumilikdə, 2025-ci ilin sonuna əksər aparıcı ölkələrdə inflyasiyanın hədəf diapazonuna qayıdacağı gözlənilir. Bu şəraitdə aparıcı ölkələrin mərkəzi bankları tərəfindən siyasət faiz dərəcələrinin tədricən azaldılacağı ehtimalı yüksəlir. Bununla belə geosiyasi gərginliyin artması şəraitində ticarət yollarında yaranan maneələr inflyasiya ilə bağlı qısamüddətli riskləri artıra bilər.

Azərbaycana gəlincə, proqnozlara görə, 2025-ci ildə illik inflyasiyanın 5,8 faiz ətrafında olacağı gözlənilir ki, bu da hədəfə uyğundur. Mərkəzi Bank 2025-ci ildə də inflyasiya amillərinin hərtərəfli təhlili əsasında özünün inflyasiya proqnozlarını müntəzəm yeniləyəcək. Ümumi inflyasiya ilə yanaşı, baza inflyasiyanın da dinamikası davamlı şəkildə təhlil olunacaq, eyni zamanda inflyasiya gözləntilərinin qiymətləndirilməsi davam etdiriləcək.

Qiymətlərin sabitliyi ilə bağlı bir sıra xarici və daxili risklər aktuallığını saxlayır. Növbəti ildə də xarici faktorlar - dünya bazarında əmtəə qiymətlərinin dinamikası, tərəfdaş ölkələrdə inflyasiya prosesləri və iqtisadi aktivlik ölkədəki inflyasiya proseslərinə təsir göstərəcək. Geosiyasi gərginliyin davam etməsi şəraitində sözügedən xarici faktorların dəyişkən olaraq qalacağı gözlənilir. Məcmu tələbin izafi genişlənməsi ehtimalı, qiymətləri dövlət tərəfindən tənzimlənən məhsul və xidmət tariflərinin dəyişimi, habelə inflyasiya gözləntilərinin artması isə qiymət sabitliyi üçün daxili risk mənbələridir.



### "Yaşıl maliyyə" və faiz dərəcələri

Ölkədə maliyyə dərinliyinin artırılması, maliyyə sabitliyinin qorunması, rəqəmsal ödənişlərin genişləndirilməsi növbəti ildə də pul siyasətinin effektivliyinə müsbət təsir edən amillər olacaq, monetar siyasətdə iqlim dəyişikliyindən və eləcə də "yaşıl keçid"dən qaynaqlanan inflyasiyanın təsirləri üzrə təhlillər davam etdiriləcək. COP29 ərəfəsində Mərkəzi Bankın İdarə Heyəti tərəfindən təsdiq edilən "Yaşıl Taksonomiya" perspektivdə zəruri hallarda "yaşıl keçid"ə pul siyasəti ilə də dəstək vermək üçün əsas yaradır.

Növbəti ildə də Mərkəzi Bankın faiz dəhlizi iqtisadiyyatda monetar şəraitə təsir göstərən əsas vasitələrindən biri kimi istifadə olunacaq, faiz dəhlizinə dair qərarlar inflyasiyanın xarici və daxili amilləri üzrə risk balansının dəyişimindən, habelə yenilənmiş makroiqtisadi proqnozlardan asılı olaraq qəbul ediləcək. MB 2025-ci ildə faiz dəhlizinin parametrləri ilə bağlı 8 qərar verəcəyini bildirir.

***E.CƏFƏRLİ***

# Vardanyan məhkəmə qarşısında...

## Təcavüzkar müharibə planlaşdırma, aparma, əhalini deportasiya etmə və ya məcburi köçürmə, hakimiyyəti zorla ələ keçirmə və zorla saxlama kimi ittihamlar irəli sürülüb...

2023-cü ilin sentyabrında baş tutmuş lokal antiterror tədbirləri nəticəsində ləğv edilmiş erməni separatizmi bölgənin təhlükəsizlik seqmenti üçün əsaslı əhəmiyyət daşıyır. İllərlə terror təhdidi yaradan, işğalçı iddialar səsləndirən, qeyri-qanuni silahlanan və ya silahlandırılan, hərbi cinayətlər törətmiş separatçı xunta birdəfəlik məhv edildi. Günahkarlar isə müttəhim qismində Azərbaycanın ədalət məhkəməsi önünə çıxarılır. Bəlli olduğu kimi artıq, 15 nəfər erməni hərbi cinayətkarın ümumilikdə 2 min 548 epizod üzrə işi məhkəməyə göndərilib. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin və Baş Prokurorluğunun yaydığı birgə məlumata görə isə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq Baş İdarəsində terrorçuluq, terrorçuluğun maliyyələşdirilməsi, Azərbaycan Respublikası və xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri və digər çoxsaylı cinayətlərin törədilməsi faktları ilə bağlı cinayət işinin istintaqı aparılıb.

### İşğal olunmuş ərazilərdə qanunsuz silahlı birləşmə yaratmaq...

Məlumatda bildirilir ki, Rusiya Federasiyasının vətəndaşı olmuş, hazırda Ermənistan Respublikasının vətəndaşı olan, Rusiya Federasiyasında "Troyka Dialoq" şirkətinin təsisçisi və rəhbəri olmuş, Rusiya Federasiyasında "KAMAZ" ASC-nin direktorlar şurasının üzvü, həmin ölkədə "Volqa-Dnepr" şirkətlər qrupunun müstəqil direktoru və sair vəzifələrdə çalışmış Vardanyan Ruben Karlenoviç 2023-cü il sentyabrın 25-də Cinayət Məcəlləsinin 214-1, 279.3 və 318.1-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində axtarış elan edilib. 2023-cü il sentyabrın 27-də saxlanılaraq istintaqa təhvil verilib və həmin tarixdə ona ittiham elan olunub. Toplanmış mötəbər sübutlar əsasında təqsirləndirilən şəxs Ruben Vardanyana Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ respublikası" və qanunsuz silahlı birləşmələri əhatə edən cinayətkar birlikdə, qanunsuz silahlı birləşmələrin və qrupların yaradılmasında və fəaliyyətinin təşkilində iştirak edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, aparma), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma), 318-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələrində nəzərdə tutulan əməllərin törədilməsi ilə bağlı yekun ittiham elan olunub.





### Cinayət işi Bakı Hərbi Məhkəməsindədir...

Qeyd edilib ki, istintaq müddətində təqsirləndirilən şəxsin müdafiə hüququ, bildiyi dildən istifadə etmək və digər prosessual hüquqları təmin edilib. Təqsirləndirilən şəxs özünün seçdiyi vəkillərlə təmin edilib, özü və vəkilləri tərəfindən verilmiş vəsatətlərə cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılaraq müvafiq qərarlar qəbul edilib. İbtidai istintaqın başa çatması barədə təqsirləndirilən şəxs Ruben Vardanyana və cinayət prosesinin digər iştirakçılarına məlumat verilib, onlar cinayət işi üzrə maddi sübutlar, sənədlər, ekspertiza rəyləri və digər sübutlar da daxil olmaqla, cinayət işinin bütün materialları ilə tanış edilib. Cinayət işi üzrə ittiham aktı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən 2024-cü il dekabrın 28-də təsdiq edilərək, baxılması üçün aidiyyəti üzrə Bakı Hərbi Məhkəməsinə göndərilib.

### Yalançı kampaniya cəhdləri faydasızdır...

Artıq bir müddətdir ki, Vardanyanın məsuliyyətdən azad edilməsi itiqamətində bəzi cəhdlərin şahidi oluruq. Hətta COP29 öncəsi bu istiqamətdə cəhdlər daha sıx xarakter aldı. Nəticədə isə, Azərbaycana qarşı aparılan şər-böhtan kampaniyası onların özlərinin ifşasına yol açdı. Erməni lobbisinin "kuklası"na çevrilmiş Okampo kimilərini dövriyyəyə salmaqla uğur əldə edəcəklərini düşünənlər, əslində, bu başdan məğlubiyyətlərini elan və etiraf etmiş oldular. Artıq hərbi cinayətkarların işi məhkəmə instansiyasındadır və onlar ali hüquq və qanun qarşısında cavab verirlər. Azərbaycana qarşı edilən çağırışlar, bəzən isə hətta "hədə" formasında hərbi cinayətkarların azad edilməsi tələbləri Azərbaycan məhkəməsinin verəcəyi qərarlara təsir etmir...

**SADİQ**

# Yeni ilə hazırlıq...

## Bayram süfrəsi neçəyə başa gəlir?

Yeni ilə sayılı günlər qalıb. 2024-cü ili geridə qoyub, 2025-ci ili qarşılamağa hazırlıqlar görürük. Hər kəsin Yeni ildən gözləntiləri fərqli olsa da, ortaq arzumuz sevdiklərimizlə xoşbəxt, dinc və sağlam bir il keçirməkdir.

Təbii ki, digər bayramlar kimi Yeni ilin də olmazsa-olmazı bayram süfrələridir. "Yeni ili necə qarşılasan, bütün il də elə keçəcək" - deyirlər. Ona görə də bayram süfrələrini hazırlamaq üçün, "yaxşı bazarlıq" etmək vacibdir. Bayrama yaxın qiymətlərin artacağından narahat olanlar öncədən alış-verişə başlayırlar. Belə ki, hər il bayram ərəfəsində çəkilən xərclər ötən illə müqayisə olunur.

Maraqlıdır, bayram süfrəsi orta statistik azərbaycanlı ailəsi üçün neçəyə başa gəlir? Hansı məhsulların qiymətində artım müşahidə olunur?

### 4 nəfərlik ailə üçün...

Builki qiymətləri nəzərə alsaq, 4 nəfərlik ailənin bayram süfrəsi minimum 250-300, maksimum 350-400 və daha çox manat civarında olacaq. Bayram süfrəsini standart yeməklərlə - salat, dolma, plov ilə bəzəmək istəyirsə, ən azı 120-150 manat ödəməlidir. Bayram süfrəsində əvəzolunmaz yeri olan plov üçün ayrıca bu qədər xərc tələb olunur: 1 kq düyü - 3.80 AZN, 1 kq qaysı - 10-12 AZN, 1 kq kişmiş - 9 -14 AZN, 1 kq şabalıd - 8 AZN, 1 kq soğan - 0.50 - 1.20 AZN, 1 kq ət - 16-22 AZN.

Meyvə, pomidor, xiyar, şirə, çərəz, tort üçün isə 90-110 manata qədər xərc çəkmək tələb olunur.

Bazardakı qiymətlərə gəldikdə, ədviyyatın qiyməti çeşidinə görə dəyişir. Kərə yağının isə kiloqramı çeşidinə görə 18-25 manat arasıdır.

Bayram ərəfəsində balıq bazarında da canlanma var. Balıqların qiyməti 6 manatdan başlayır, 48 manatda yekunlaşır.

### Quş məhsullarının qiyməti

Yeni il süfrəsini qəlyanaltılar və yeməkləri zəngin göstərə bilər. Adətən Yeni il süfrəsinin menyusu ədikdə ağla gələn ilk yemək hinduşka ətidir. Lakin bunu da almağa hər ailənin büdcəsi yetmir.

Hinduşka fərə- 48 AZN

Xoruz- 22-25 AZN

Kənd çolpası- 15 AZN



### Yolkasız olmaz...

Yeni il bayramının ən önəmli simvollarından biri də məhz yolkadır. İstər uşaqların, istərsə də böyüklərin sevimlisi olan Yeni il yolkaları təkcə parklarda və ictimai yerlərdə deyil, evlərdə də həvəslə bəzədilir.

Hər il olduğu kimi, bu il də mağaza və onlayn satış platformalarında müxtəlif ölçülərdə və fərqli qiymətlərdə yolkalara və bəzək aksesuarlarına rast gəlmək mümkündür. Stolüstü suvenir yolkalar 3 manatdan 9 manata, digərləri isə hündürlüyünə görə 35 manatdan 150 manat və daha baha qiymətlərə təklif olunur.

Satıcılar deyirlər ki, ötən illə müqayisədə bəzi yolkaların qiymətində 25-30 faiz artım var. Məsələn, ötən il 1.20 metr ölçüdə olan bayram yolkası ötən bayram öncəsi minimum 90-100 manata satıldığı halda, bu il 150-200 manat arasında dəyişir. Bu qiymət süni, yəni plastik ağaclara aiddir. Əsl yolkalarda isə 1 metr 50 santimetrədək olan ölçülərin qiymətləri ən az 400-450 manatdır.

Yolka üçün bəzək aksesuarları da fərqli qiymətlərədir.

### Bayram xərci ailələr üzrə dəyişir...

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən iqtisadçı Rəşad Həsənovun sözlərinə görə, ötən illərlə müqayisədə ərzaq məhsullarının qiymətində artım var: "Əvvəlki ilin noyabr ayı ilə müqayisədə görürük ki, bu ilin noyabr ayında qida məhsullarında 5 faizə qədər, xidmətlərdə 6 faizə qədər bahalaşma var. Müvafiq qiymət artımları bayram ilə əlaqədar xərclərdə də özünü göstərəcək. Bu, ailələr üzrə dəyişir. Hansı ailələrdə qida məhsullarının və ya xidmətlərin daha çox payı varsa, həmin ailələrin xərclərində daha böyük artımlar müşahidə olunur. Hansı ailələrdə ki, qeyri-qida təyinatlı xərclər üstünlük təşkil edirsə, onlarda nisbətən daha aşağı xərclər ola bilər.

Ortalama xərclə bağlı nə isə demək çox çətindir. Çünki bu, kifayət qədər dəyişən göstəricidir. Ailələrin alıcılıq gücündən, gəlirinin dəyişməsindən asılı olaraq fərqlənir".

R.Həsənov qeyd edib ki, normal dövr ilə müqayisədə bayram dövründə ailələrin xərcləri təxminən 5-6 dəfə artır: "Bu aspektdən məsələyə yanaşmış olsaq, bir ailənin xərcləri xidmətlər xaric təxminən 300-500 manat arasında olacaq. Xidmətlərin strukturu isə kifayət qədər genişdir. Səyahət edən zaman 10000-20000 manata qədər dəyişir".

**Yeganə BAYRAMOVA**

# Bizi birləşdirən ideologiya...

## Azərbaycançılıq dilimizi, mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi yaşatmağı təşviq edir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliği" istiqaməti üzrə hazırlanmışdır**

Hər bir xalqın milli ideologiyası həmin xalqın adət-ənənəsini, həyat tərzini və fəaliyyət istiqamətlərini özündə ehtiva edən baxışlar sistemidir. Vətəni, torpağı sevmək, onu qorumaq hər zaman xalqımızın müqəddəs amallarından olub. Təsadüfi deyil ki, bu amallar xalqımızın birliyini, vətənpərvərliyini daim gücləndirib. Bu isə məhz azərbaycançılıq ideologiyasına əsaslanır. Şüurlarımızda dərindən kök salan, əbədi olaraq qəlbimizə, ruhumuza yazılan azərbaycançılıq məfkurəsinin özülü neçə-neçə əsrlər əvvəl qoyulub. Bu ideologiya hər zaman xalqımızın ruhunu ölməz edib, onu ayaqda, daim mübarizə ovqatında saxlayıb.

Bu ideyanın məqsədi çoxmillətli Azərbaycan xalqının birləşməsi və demokratik yolla inkişaf etməsinə zəmin yaradan dəyərlər sistemini formalaşdırmaqdır. Çoxmillətli Azərbaycan xalqını birləşdirən azərbaycançılıq ideyası müstəqilliyin qorunmasına, demokratik inkişafa və hüquqi, sosial dövlətin qurulmasına xidmət edir.

Tarixi təcrübə də göstərir ki, cəmiyyətdə müəyyən inkişaf vektorlarını müəyyənləşdirən ideologiya olmadıqda dövlətin siyasi, iqtisadi və sosial siyasətində boşluqlar yaranır. Bu isə öz növbəsində cəmiyyət daxilində bir-birinə zidd, ənənəvi sosial-mənəvi dəyərlərə vəhdət təşkil etməyən yad ideyaların yaranmasına gətirib çıxarır.

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən BDU-nun tarix fakültəsinin müəllimi, tarix elmləri doktoru Nuru Məmmədov bildirib ki, azərbaycançılığın dərin kökləri və təməlləri millətimizin tarixi keçmişi və bugünü ilə sıx bağlıdır. Onun sözlərinə görə, xalqımız milli kimliyini dərk etdiyi zamandan bəri azərbaycançılıq ideologiyası müxtəlif enişli-yoxuşlu yollardan, tarixi dövrlərdən keçərək inkişaf edib, zənginləşib: "Azərbaycanda etnik kimliyindən asılı olmayaraq, bütün vətəndaşlar Azərbaycan millətidir. Ona görə də azərbaycançılıq ilk növbədə ailədən, bağçadan, məktəbdən və cəmiyyətdən gəlməlidir. Cəlil Məmmədquluzadə yazırdı ki, millətin gələcəyi anaların əlindədir. Azərbaycançılıq təkcə şüar olaraq deyil, məzmun və mahiyyətinə görə dərsliklərimizdə hakim olmalıdır. Azərbaycançılıq bu və ya başqa səviyyədə təhsil müəssisələrində, KİV-də təbliğ edilir. Eyni zamanda, bu ideologiyanın təkmilləşdirilməsinə ehtiyac olduğu qənaətindəyəm. Azərbaycançılığın daha geniş təbliğ edilməsinin hər bir Azərbaycan vətəndaşı üçün əhəmiyyəti böyükdür. Hesab edirəm ki, azərbaycançılıq təkcə Vətəni, dövləti sevmək deyil, hər bir şəxsin olduğu yerdə onun sabit və davamlı inkişafı, dəyişən dünya reallıqlarına uyğun olaraq tərəqqisi və təhlükəsizliyi üçün çalışması deməkdir. Vətəndaşlarımızı birləşdirən bu ideologiyanın inkişafı yolunda əngəl olan, xüsusən, millətimizin birliyi və ölkəmizin bütövlüyünə qarşı yönəldimiş bütün, ən xırda cəhdlərin qarşısı amansızlıqla alınmalıdır".

Tarixçi qeyd edib ki, azərbaycançılıq ideologiyası hər şeydən öncə, Azərbaycan xalqının bu günə qədər əldə etdiyi milli-mənəvi dəyərlərə sahib çıxmaq, Azərbaycan dilini, tarixini, mədəniyyətini bilmək, tarixən əldə etdiyimiz dəyərləri mühafizə etməklə, qloballaşan dünyada mövcud olan, yeni universal dəyərləri mənimsəməklə, bunları ümummilli mənafelərimizin qorunması istiqamətində səfərbər etmək deməkdir: "Azərbaycançılıq ideyası milli kimliyimiz, milli birliyimizdir. Bu ideya tarix boyu xalqımızın əzabəziyyəti, canı, qəhrəmanlığı bahasına nail olduğu ən böyük mənəvi sərvətidir. Azərbaycançılıq ideyasının təbliği dünya azərbaycanlılarının ümumi maraqları və ölkənin ərazi bütövlüyünün qorunmasına xidmət edir. Bu ideya gələcək nəsillərə də Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini sonsuz sevməyi və yaşatmağı, azərbaycanlı olduğuna görə daim qürur hissi keçirməyi aşılayır".

N.Məmmədovun sözlərinə görə, dövlətimiz tərəfindən azərbaycançılıq ideyasının təbliği sahəsində böyük işlər həyata keçirilib: "Dövlətimiz xalqı birləşdirən bir amal, ideoloji ruh kimi azərbaycançılığı daim təşviq edib. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan azərbaycançılıq ideologiyası vətənpərvərliklə həmahəng formada inkişaf edib. Bu ideologiyanın təsiri nəticəsində bu gün ölkədə kifayət qədər yüksək səviyyəyə çatmış xalq-iqtidar birliyi, vətəndaş-dövlət əlaqələri mövcuddur. Hesab edirəm ki, azərbaycançılıq ideologiyasının dövlət tərəfindən daim gündəmdə tutulması və ön sıralarda olması nəticəsində xalqımız 44 günlük Vətən müharibəsində ölkə başçımızın ətrafında sıx birləşdi.

**Yeganə BAYRAMOVA**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




# 2024-cü il...

## Azərbaycan mədəniyyəti nə ilə yadda qaldı?

*Yeganə BAYRAMOVA*

Azərbaycanın mədəniyyət inciləri - musiqisi, poeziyası və incəsənəti qədim milli-mənəvi dəyərlərin vəhdətindən doğan nadir bir xəzinədir. Bu gün ölkəmiz müxtəlif sivilizasiyaların qovuşduğu bir məkan olaraq həm Şərq, həm də Qərb mədəniyyətlərinin təsirini özündə əks etdirir və bizi dünya mədəniyyət xəritəsində seçilən və tanınan bir zirvəyə aparır.

**"İslam dünyasının mədəniyyət paytaxtı"**

2024-cü il ölkəmizin mədəniyyətini dünya səhnəsinə təqdim edən mühüm tədbirlərin, festival və sərgilərin keçirilməsi ilə əlamətdar il oldu. Belə ki, 2023-cü il sentyabrın 25-də Qətərin paytaxtı Dohada keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi tarixi hadisə kimi yadda qaldı.

İl ərzində İslam Dünyasının Mədəniyyət Forumu təşkil edildi və bu çərçivədə Şuşada İslam Əməkdaşlığı Təşkilatının mədəni irsin mühafizəsinə həsr olunmuş beynəlxalq konfrans, "İslam dünyasının itirilməkdə olan qeyri-maddi mədəni irs nümunələri" mövzusunda dəyirmi masa, sərgi və digər təqdimatlar keçirildi. Mayın 11-də Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı - 2024" ilinin açılış mərasimi keçirildi. Azərbaycanın mədəniyyət paytaxtı yenə doğmalarını, qonaqlarını qarşıladı. Həmçinin builki festival iştirakçıları arasında ICESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər də yer almışdı.






**"Şuşa türk dövlətləri birliyinin mədəniyyət incisidir"**

Bundan başqa, Şuşada iyun ayının 1-də rəngarəng mədəniyyətlərin harmoniyasını nümayiş etdirən "Şuşa türk dövlətləri birliyinin mədəniyyət incisidir" adlı beynəlxalq uşaq yaradıcılıq festivalı keçirildi. Bu möhtəşəm tədbir Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Macarıstandan gələn 250-yə yaxın məktəblinin iştirakı ilə baş tutdu. Beynəlxalq yaradıcılıq festivalının əsas qayəsi türkdilli dövlətlərdən olan uşaqlar arasında dostluq münasibətlərini möhkəmləndirmək, onlara öz milli kimliklərini və mədəni irslərini tanıtmaq üçün imkan yaratmaqla yanaşı, Şuşanın füsunkar təbiətini və mədəni əhəmiyyətini beynəlxalq ictimaiyyətə tanıtmaq idi.

Azərbaycan mədəniyyətinin dünya miqyasında tanıdılması və mədəniyyətlərarası əlaqələrin inkişaf etdirilməsi sahəsindəki mühüm nailiyyətlərdən biri iyun ayında Özbəkistanda keçirilən Azərbaycan Mədəniyyət Günləridir. Bu tədbir iki qardaş ölkə arasında mədəni əlaqələrin daha da möhkəmlənməsi, Azərbaycanın zəngin mədəni irsinin təqdim edilməsi və müxtəlif sahələrdəki uğurlarının tanıdılması məqsədi daşıyırdı. Qeyd edək ki, "Özbəkistan" Forumlar Sarayında keçirilən konsertdə Azərbaycanın görkəmli bəstəkarları Üzeyir Hacıbəyli, Emin Sabitoğlu, Tofiq Quliyev, Rauf Hacıyev, Ələkbər Tağıyev, Faiq Sücəddinovun əsərlərinə müraciət olunub, xalq rəqsləri nümayiş etdirilib və tədbirə Rauf Hacıyevin "Azərbaycan" mahnısı ilə yekun vurulub.

**Şəki "İpək Yolu" XIII Beynəlxalq Musiqi Festivalı**

Növbəti ay Azərbaycanın qədim sənət və mədəniyyət mərkəzlərindən olan Şəkidə musiqi bayramına - Şəki "İpək Yolu" XIII Beynəlxalq Musiqi Festivalına start verilib. Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə baş tutan festival üç gün davam edərək bir sıra ölkələrin, eləcə də Azərbaycanın tanınmış musiqi kollektivlərini və istedadlı musiqiçilərini bir araya gətirib. Bu növ tədbirlərin keçirilməsi musiqi mədəniyyətimizin zənginliyini bir daha ortaya qoyur.

Sentyabr ayında Şuşada Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin ev-muzeyinin təntənəli açılışı ilin mühüm hadisələrindən biri oldu. Muzeyin bərpası həm milli-mədəni irsin qorunması, həm də Qarabağın mədəni dirçəlişinin simvolu kimi qiymətləndirildi. Muzeydə təqdim olunan 136 unikal eksponat, bəstəkarın şəxsi əşyaları və ailə fotoşəkilləri ziyarətçilərə böyük təsir bağışladı. Şuşada mədəni dirçəlişi əks etdirən bu mühüm addımla yanaşı, Qarabağın digər bölgələrində də tarixi-mədəni irsin bərpası istiqamətində genişmiqyaslı işlər görüldü. 2023-cü ildə yerli və xarici mütəxəssislərin iştirakı ilə restavrasiya və arxeoloji tədqiqat işlərinə başlanılan Ağdam İmarət Kompleksinin də bu il açılışı keçirildi. Açılışda iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kompleksdə yaradılan şəraitlə tanış oldu, Qarabağ atlarına baxdı və düşmən tərəfindən məhv edilən tarixi çinarların yerində ağac əkdi.

**"Azərbaycan mədəniyyətinin inciləri"**

Göründüyü kimi, 2024-cü il ölkəmizin mədəniyyətini dünya səhnəsinə təqdim edən mühüm tədbirlərin, festival və sərgilərin keçirilməsi ilə əlamətdar il oldu. Qazaxıstanda Azərbaycan mədəniyyəti günlərinin başlanması da bu ilin sentyabr ayına təsadüf edir. Bu münasibətlə ölkəmizin incəsənət ustaları, bədii kollektivləri, yazıçıları və media nümayəndələri Astanaya səfər ediblər. Sentyabrın 24-də "Füzuli-530" kitabının təqdimatı və etnocaz konserti, növbəti gün isə Qazaxıstan və Azərbaycan milli kitabxanaları arasında əməkdaşlığa dair Memorandumun imzalanması mərasimi, Elmira Axundovanın kitabının təqdimatı, habelə "Azərbaycan mədəniyyətinin inciləri" sərgisinin açılışı və rəqs ansamblının konserti keçirildi. Hər bir təqdimat, hər bir tədbir iki ölkə arasında mədəni əlaqələrin daha da güclənməsinə xidmət edərək mədəniyyətimizin beynəlxalq səviyyədə tanıdılmasında mühüm rol oynayır.

Prezident İlham Əliyev müxtəlif sahələrdə olduğu kimi, mədəniyyətin inkişafını da hər zaman diqqət mərkəzində saxlayır. Prezidentin rəhbərliyi altında Azərbaycanın mədəni irsinin qorunması və dünya səhnəsində tanıdılması sahəsində bir çox uğurlar əldə edilib. 22 oktyabr tarixli qərara əsasən, Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən Bakıdakı Muğam Mərkəzinə "beynəlxalq" statusunun verilməsi bu sahədə növbəti mühüm addım oldu.

**2024-cü ildə itirdiklərimiz...**

2024-ci ildə Azərbaycan mədəniyyəti, ədəbiyyatı, incəsənəti, elmi adına itkilərimiz də oldu. Yanvar ayının 5-də Əməkdar artist, qarmon ifaçısı Gülbahar Şükürlü, yanvarın 6-da isə Əməkdar artist, xanəndə Aygün Bəylər dünyasını dəyişdi. Fevralın 21-də isə Xalq yazıçısı, nasir, dramaturq, ssenarist Mövlud Süleymanlı vəfat etdi. Mayın 22-də tanınmış alim-türkoloq, tərcüməçi, filologiya elmləri doktoru, professor Ramiz Əskər dünyasını dəyişdi. Oktyabrın 26-da Xalq artisti, opera müğənnisi Şahlar Quliyev və Xalq artisti, bəstəkar, dirijor Yaşar İmanov haqqın rəhmətinə qovuşdu.





"Səhliyalı" şirkətinin kollektivi qalib Azərbaycan xalqını

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edir.

Həmrəylik günündə dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların qəlbi ana Vətənə böyük məhəbbətlə döyünür. Qoy həmrəyliyimiz əbədi olsun!
Yeni il bütün ailələrə sevinc və xoşbəxtlik gətirsin!

Kollektiv adından şirkətin direktoru:

Rövşən Səmədov



Təsisçi: Yeni Azərbaycan Partiyası
Baş redaktor: Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar: 598-37-76, 498-82-21, 498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4800
Sifariş: 3011
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi: Yeganə Bayramova